## AZƏRBAYCAN CÜDOÇUSU HİDAYƏT HEYDƏROV DÜNYA ÇEMPİONATINDA BÜRÜNC MEDAL QAZANIB

*Prezident İlham Əliyev Milli Gimnastika arenasında yarışlara baxıb*



Bakıda cüdo üzrə dünya çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri sentyabrın 22-də Milli Gimnastika arenasında keçirilən yarışları izləyiblər. Çempionatın üçüncü günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib...

Bax səh. 2

## DƏNİZKƏNARI MİLLİ PARKDA BEYNƏLXALQ SÜLH GÜNÜNƏ HƏSR OLUNAN TƏDBİR KEÇİRİLİB



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 22-də Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib. Beynəlxalq Sülh Gününün təsis olunması tarixi və əhəmiyyətindən danışan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, bu il Beynəlxalq Sülh Günü "Sülh hüququ: Ümumdünya İnsan hüquqları Bəyannaməsinin...

Bax səh. 3




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 25 sentyabr 2018-ci il, çərşənbə axşamı / № 180 (5307). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa Azərbaycana işgüzar səfər edib





## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA QARŞILANMA

Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa sentyabrın 24-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanı hava limanında Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov və digər rəsmi şəxslər qarşılayıblar.

## PREZİDENT İLHAM ƏLİYEVİN HƏYATA KEÇİRDİYİ SİYASƏT, BÖLGƏDƏ CƏRƏYAN EDƏN PROSESLƏR VƏ GEOSİYASİ AMİLLƏR TORPAQLARIMIZIN İŞĞALDAN AZAD OLUNMASI ÜÇÜN YENİ İMKANLAR YARADIR

...Bu gün Azərbaycan özünün əldə etdiyi uğurlarla beynəlxalq aləmdə çox böyük nüfuza sahibdir. Bu, birhəqiqətdir ki, dünyanın əksər dövlətləri Azərbaycana etimad göstərir, bizimlə yaxından əməkdaşlıq etmək istəyir və ölkəmiz beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınır. Bunun isə sadə bir səbəbi var. Prezident İlham Əliyev xarici və daxili siyasətdə ardıcıl və proqnozlaşdırılan siyasət həyata keçirir, milli maraqlarımızı bütün müstəvilərdə qorumağı bacarır, heç bir təzyiq və diktə ilə qərar qəbul etmir, verdiyi vədə əməl edir və sözün əsl mənasında, ölkəmizin müstəqilliyini qoruya bilir. Bu cür prinsipal mövqe sərgiləyən, açıq və şəffaf siyasət həyata keçirən bir ölkə, şübhəsiz ki, bütün tərəfdaşların rəğbətini qazanır, dünyada nüfuzu artır və ona hər kəs hörmətlə yanaşır...

Bax səh. 6



## DAYANIQLI ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATININ DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNİN ƏLDƏ OLUNMASINA TÖHFƏSİNİN SÜRƏTLƏNDİRİLMƏSİ MÜZAKİRƏ EDİLİB

Bakıda dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib...

Bax səh. 3



## Prezidentin iş günü

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, müdafiə naziri Əlahəzrət Məhəmməd bin Salman bin Əbdüləziz Al Səuda təbrik məktubu göndərib.

⬩ ⬩ ⬩

Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda təbrik məktubu göndərib.

⬩ ⬩ ⬩

Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaniyə başsağlığı məktubu göndərib.

### Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"na uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib...

Bax səh. 2

### Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması müasir tariximizdə dönüş nöqtəsi oldu

Xəbər verildiyi kimi, sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Həmin iclasdakı çıxışında bir sıra mühüm və strateji məqamlara toxunan Prezident İlham Əliyev bildirib ki, 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Ölkə Prezidenti həmçinin ikinci dəfə müstəqillik əldə olunandan sonrakı ilk illərin Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunduğunu da vurğulayıb. Həqiqətən də, 1991-ci ildə SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan ölkəmizdə...

Bax səh. 5

### Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində tədbirlər görülür



Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində məqsədyönlü islahatlar aparılaraq bu sahədə qanunvericilik təkmilləşib, hakimlərin şəffaf seçim qaydası müəyyən olunaraq hakim korpusu 60 faiz təzələnib...

Bax səh. 4

### YAP Nizami rayon təşkilatının 25 illik yubileyi qeyd olunub



Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının yaranmasının 25-ci ildönümü münasibətilə Heydər Əliyev adına Neft Emalı Zavodunda tədbir keçirilib...

Bax səh. 4

### Bakıda Səudiyyə Ərəbistanının milli bayramı qeyd edilib



Sentyabrın 24-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Krallıq elan olunması günü münasibətilə rəsmi qəbul təşkil edib...

Bax səh. 5

### Səfa Mirzəyev: Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq nəticəsində böyük uğurlar əldə olunub



Sentyabrın 24-də Tbilisidə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramına üzv ölkələrin parlamentlərinin aparat rəhbərlərinin işçi iclası işə başlayıb...

Bax səh. 4

### Baş Prokurorluğun nümayəndə heyəti MDB dövlətləri Baş prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib




Sentyabrın 20-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi...

Bax səh. 5

# Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa Azərbaycana işgüzar səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 24-də ölkəmizə işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Monqolustan Prezidentini qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Daha sonra dövlət başçılarının görüşü olub.





Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa deyib: **"Cənab Prezident, bizim bir çox vətəndaşlarımız, xüsusilə idmançılarımız, güləşçilərimiz Bakıdakı çempionatda iştirak edirlər. Onların hamısı böyük məmnuniyyətlə qeyd edirlər ki, ölkəniz möhtəşəm inkişaf edir. Onlar bunu öz gözləri ilə görürlər. Biz yerə enərkən təyyarədən görünürdü ki, siz çoxlu ağac əkmisiniz, çox təmiz küçələriniz var, çoxlu sayda müasir binalar, idman qurğuları inşa edilib. Bütün bunlar daha çox gəncin idmana yiyələnməsi üçündür və bu, böyüyən nəslin tərbiyəsinə müsbət təsir göstərir".**

Azərbaycan Prezidenti İlham Əliyev deyib: **"Cənab Prezident, Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz.**

**Seçkilərdə qələbə münasibətilə məni təbrik etmək üçün zəng vuranda söhbət zamanı biz Bakıda görüşməklə bağlı razılığa gəldik. Mən Sizi dəvət etdim. Şadam ki, Siz Bakıya gəlmisiniz. Siz tanınmış cüdoçusunuz, buna görə də yarışları izləmək Sizin üçün maraqlı olacaq.**

**Bu görüş bizim ikitərəfli gündəliyimizi, əməkdaşlığımızı gücləndirmək, o cümlədən idman sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirməklə bağlı bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı fürsətdir. Siz qeyd etdiniz ki, burada çox idman qurğuları var. Bu, belədir. Biz son zamanlar çoxlu idman obyektləri, stadionlar inşa etmişik və nəticələr çox yaxşıdır. Bizim idmançılarımız Rio de Janeyrodakı Olimpiadada 18 medal qazanıblar və idmanın bir çox növlərində, o cümlədən cüdoda da yaxşı nəticələr göstərirlər. Bir daha xoş gəlmisiniz. Mən əminəm ki, Azərbaycana səfəriniz Sizin üçün xoş olacaq".**

Görüşdə iqtisadi, kənd təsərrüfatı, ticarət, investisiya, turizm, informasiya-kommunikasiya texnologiyaları, tranzit daşımalar, humanitar, təhsil, xalçaçılıq və Monqolustan tərəfinin Azərbaycan peykinin imkanlarından istifadəsi və "ASAN xidmət" təcrübəsinin bölüşülməsi ilə bağlı məsələlər müzakirə olunub.

Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycan cüdoçusu Hidayət Heydərov dünya çempionatında bürünc medal qazanıb

## *Prezident İlham Əliyev Milli Gimnastika arenasında yarışlara baxıb*

Bakıda cüdo üzrə dünya çempionatı davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri sentyabrın 22-də Milli Gimnastika arenasında keçirilən yarışları izləyiblər.





Çempionatın üçüncü günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib. Cüdoçularımızdan yalnız 73 kiloqram çəki dərəcəsində Hidayət Heydərov yarımfinala qədər addımlaya bilib. İraqlı Sajjad Sehenlə qarşılaşan və onu ipponla məğlub edərək 1/16 finala vəsiqə qazanan idmançımız bu mərhələdə Monako idmançısı Sedrik Bessinə yenə də ipponla qalib gəlib. Növbəti mərhələdə tacikistanlı Bəhruzi Xocazodaya qalib gələn cüdoçumuz çempionatın 1/4 finalına vəsiqə qazanıb. Bu mərhələdə də rəqibindən üstün olan Hidayət Heydərov Monqolustan idmançısı Odbayar Qanbaatarı məğlub edib. Bununla da Bakıda keçirilən cüdo üzrə dünya çempionatında yarımfinala vəsiqə qazanan ilk Azərbaycan idmançısı Hidayət Heydərov olub. O, bu mərhələdə Yaponiya idmançısı Haşimito Soiçi ilə qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən görüşdə 21 yaşlı idmançımız Hidayət Heydərov məğlub olsa da, üçüncü yer uğrunda mübarizədə monqolustanlı rəqibi Tsoqtbaatar Tsend-Oçirə qalib gəlib. Beləliklə, Avropa çempionu və IV İslam Həmrəyliyi Oyunlarının qalibi olan Hidayət Heydərov dünya çempionatını üçüncü pillədə başa vurub.

Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.








# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"na uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib.





AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının 2019-cu il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2019-cu il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasətin ölkəmizin dinamik inkişafına rəvac verdiyini vurğulayan Baş nazir Novruz Məmmədov bu baxımdan gələn ilin dövlət büdcəsinin layihəsinin də əldə olunan nailiyyətlər zəminində, habelə dünyada gedən qlobal maliyyə-iqtisadi proseslər nəzərə alınmaqla tərtib edildiyini bildirib. O qeyd edib ki, layihənin hazırlanmasında dövlət büdcəsinin həmişəki kimi sosialyönümlü olması, əhalinin maddi rifahının daim yüksəldilməsi əsas götürülüb, xüsusilə qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq müstəvidə nüfuzunun daha da artırılması kimi mühüm amillərə diqqət yetirilib.

Sonra gündəlikdə duran məsələlərə dair Azərbaycan Respublikası maliyyə nazirinin və Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavininin məruzələri dinlənilib.

Geniş müzakirələrdən sonra qərara alınıb ki, təqdim olunan büdcə layihələri bəyənilsin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, büdcə zərfinə daxil olan sənədlər toplusu Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

# Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan tədbir keçirilib



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 22-də Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Beynəlxalq Sülh Gününün təsis olunması tarixi və əhəmiyyətindən danışan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, bu il Beynəlxalq Sülh Günü "Sülh hüququ: Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 70 illiyi" devizi altında keçirilir. O, ölkəmizdə də bu günün hər il yüksək səviyyədə qeyd olunduğunu bildirib. Nazir vurğulayıb ki, Beynəlxalq Sülh Günü ilə əlaqədar Ombudsmanın təşəbbüsü ilə ölkəmizdə hər il 21 avqust - 21 sentyabr tarixlərində "Sülh aylığı" keçirilir. Bu ay çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də müvafiq tədbirlər təşkil olunur.

Sahil Babayev dövlətimizin başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycanın öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda, mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran bir dövlət olduğunu vurğulayıb. Nazir, həmçinin ölkəmizdə sosial ədalət prinsipinə söykənən əmək və sosial hüquqlar sisteminin bərqərar olduğunu qeyd edib. O bildirib ki, insan hüquqlarının vacib tərkib hissəsi olan əmək və sosial hüquqlar sistemi daim mütərəqqi dünya təcrübəsinə əsasən təkmilləşdirilir.

Nazir deyib ki, yeni qəbul edilmiş "Əlilliyi olan şəxslər haqqında" Qanun fiziki məhdudiyyətli vətəndaşlarımızın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təcrübəni əks etdirməkdədir. Ölkəmizdə əlilliyi olan şəxslər üçün bərpa mərkəzləri şəbəkəsinin genişləndirilməsi, fərdi reabilitasiya proqramının icrası istiqamətində işlər aparılır.





Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova Beynəlxalq Sülh Gününü təsis edən BMT tərəfindən bütün dünya dövlətlərinə sülhyaratma proseslərinin önündə getməyin, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmanın tövsiyə olunduğunu vurğulayıb. O, insan hüquqlarının təmin olunmasının yalnız sülh şəraitində mümkünlüyünü vurğulayaraq, torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan ölkəmiz üçün sülh mövzusunun önəmli olduğunu diqqətə çatdırıb. Elmira Süleymanova Dağlıq Qarabağ münaqişəsi ilə üzləşən xalqımızın sülh mövzusuna həssas yanaşdığını deyərək, belə tədbirlərin sülh mövzusunun təbliğinə təkan verdiyini bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və təşkilatın İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai BMT ilə Azərbaycan arasında insan hüquqlarının qorunması istiqamətində səmərəli əməkdaşlığın qurulduğunu vurğulayıb. Bildirib ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsindən 70 il keçməsinə baxmayaraq, bu gün də bu istiqamətdə səmərəli işlər görülərək maarifləndirmə aparılır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan əl işlərindən ibarət sərgiyə baxıb.

Sərgidə əlilliyi olan şəxslərin sülh mövzusunda yaratdığı incəsənət nümunələrinə, tematik əyləncə güşələrinə də baxış olub.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada sərgilənən əl işlərinin müəllifləri ilə söhbət edib, əsərlərin yaradılması prosesi ilə maraqlanıb, onlara gələcək yaradıcılıq fəaliyyətlərində uğurlar arzulayıb.

Leyla Əliyeva BOCCIA İdman Federasiyasının idmançıları ilə də görüşüb. Ölkəmizdə BOCCIA idmanının yaradılması Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşıb.1984-cü ildə Paralimpiya Oyunlarının proqramına daxil edilən BOCCIA 34 il ərzində 50 ölkədə inkişaf etdirilərək sürətlə məşhurlaşıb. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən 2013-cü ildən ölkəmizdə BOCCIA idman növünün təbliğinə başlanılıb və bu idman növü üzrə milli komanda yaradılıb. Azərbaycan idmanı üçün yenilik olan bu idman növündə ağır kateqoriyalı əlillik dərəcəsi olan uşaqlar, gənclər və yaşlılar güclərini sınaya bilərlər.

Beynəlxalq Sülh Günü kimi tədbirlər Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" çərçivəsində əhalinin hüquq düşüncəsinin inkişafına, sülh və dözümlülük mədəniyyətinin təbliğinə xidmət edir.

Leyla Əliyeva uşaqlarla birlikdə bütün dünyada sülh rəmzi olan göyərçinləri səmaya buraxıb.

Tədbir iştirakçıları Beynəlxalq Sülh Gününün daha bir rəmzi jestini həyata keçirdilər. Onlar rəngli boyalarla əl izlərini tabloya qoyublar.

Dənizkənarı Milli Parkda əlilliyi olan şəxslərdən və uşaq yaradıcılıq mərkəzlərindən olan rəqs qrupları musiqili proqramla çıxış ediblər. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, rəqs edənlər arasında eşitmə qabiliyyəti olmayan uşaqlar da var idi. Amma buna baxmayaraq bulvara gələn hər kəs bu çıxışları böyük maraqla izləyib.

Beynəlxalq Sülh Günü 1981-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən təsis edilib. 2001-ci ildə Baş Assambleya hər il Beynəlxalq Sülh Gününü qeyri-zorakılıq və atəşkəs günü olaraq qeyd etməyi qərara alıb. Bu əlamətdar gün BMT-nin Nyu-Yorkdakı baş qərargahında yerləşən "Sülh zəngi"nin çalınması ilə başlayır. Yaponiya parlamentinin hədiyyəsi olan bu zəngin üzərində "Yaşasın mütləq dünya sülhü!" sözləri yazılıb.

# Azərbaycan-Rusiya İşgüzar Şurasının iclası keçirilib



Bakıda Azərbaycan-Rusiya İşgüzar Şurasının iclası keçirilib.

Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, qida, kənd təsərrüfatı, sənaye, tikinti və maliyyə sahəsində fəaliyyət göstərən 70-ə yaxın iş adamı və şirkət təmsilçiləri iştirak edib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini, Rusiyanın ölkəmizin əsas ticarət tərəfdaşlarından olduğunu vurğulayıb. Səməd Qurbanov qeyd edib ki, 2016-cı ildə yaradılan Azərbaycan-Rusiya İşgüzar Şurasının əsas məqsədi Azərbaycan və Rusiya arasında iqtisadi və investisiya qoyuluşu sahəsində əlaqələri, iş adamları arasında əməkdaşlığı daha da genişləndirməkdir. Bu məqsədlə Azərbaycan-Rusiya İşgüzar Şurası Rusiyanın analoji təşkilatı olan Rusiya-Azərbaycan İşgüzar Şurası ilə yaxından əməkdaşlıq edir və iş adamlarının iştirakı ilə işgüzar şuraların mütəmadi olaraq birgə iclasları keçirilir. Bununla belə, mövcud potensial nəzərə alınaraq ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi üçün yeni mexanizmlərin tətbiqi istiqamətində tədbirlər davam etdiriləcək.

Sonra Azərbaycan-Rusiya İşgüzar Şurasının rəsmi internet saytı və loqosunun təqdimatı keçirilib.

Tədbirdə iş adamlarının çıxışları dinlənib, şuranın fəaliyyətinə dair sahibkarları maraqlandıran suallar cavablandırılıb.

# Dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib



Bakıda dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (DİMƏŞ) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə Bakıda milli seminar keçirilib. Seminar dayanıqlı ərzaq və kənd təsərrüfatının Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin nail olunmasına töhfəsinin sürətləndirilməsi mövzusuna həsr olunub.



FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığı çox yüksək qiymətləndirdiyini deyib. Bildirib ki, FAO Azərbaycanla 2016-2020-ci illəri əhatə edən əməkdaşlıq sazişi imzalayıb. Sazişə əsasən, yaxın zamanlarda layihələrin icrasına başlanılacaq. **"Bu layihələr üzərində 2 ildir işləyirik",** - deyən M.Çakmak Azərbaycanda kənd təsərrüfatında məhsuldarlığın artımı ilə yanaşı, qida təhlükəsizliyinə xüsusi diqqət yetirilməsinin önəmini vurğulayıb.

Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov qeyd edib ki, Azərbaycan hökuməti FAO ilə əməkdaşlıqdan məmnundur: **"Düşünürük ki, bu əməkdaşlıq Azərbaycanda kənd təsərrüfatının inkişafına və modernləşdirilməsinə, ərzaq təhlükəsizliyi probleminin daha yüksək səviyyədə həll olunmasına öz töhfəsini verəcək. Kənd təsərrüfatının inkişafı problemləri bilavasitə dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə sıx əlaqədardır".**

Bildirilib ki, hökumətin həyata keçirdiyi uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda insanların qıdalanması ilə bağlı problemlər həll olunub. Azərbaycan hökuməti kənd təsərrüfatının inkişaf etdirilməsinə önəm verir. Kənd təsərrüfatının inkişafı dayanıqlı inkişaf məqsədləri ilə bilavasitə bağlıdır. Kənd təsərrüfatı məhsullarının istehsalı ümumi iqtisadi konsepsiyanın həyata keçirilməsində mühüm rol oynayır.

**"Azərbaycanda əhalinin 47 faizi kənddə yaşayır. Dayanıqlı inkişaf məqsədlərində qarşıya qoyulan bir sıra hədəflər, o cümlədən işsizliyin və yoxsulluğun aradan qaldırılması, iqtisadiyyatın şaxələndirilməsi kontekstində Azərbaycanın kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. 12-13 il ərzində Azərbaycanda yoxsulluq həddi 50 faizdən təxminən 5 faizə endirilib. Kənd təsərrüfatının inkişafı, ilk növbədə, kənddə yaşayan insanların həyatının yaxşılaşdırılmasına, iş yerlərinin artırılmasına, əmək məhsuldarlığının yüksəlməsinə gətirib çıxaracaq ki, bu da bütövlükdə, Azərbaycan əhalisinin ümumi yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olacaq",** - deyə Baş nazirin müavini qeyd edib.

Son illər kənd təsərrüfatı sahəsində aparılan islahatlar nəticəsində kənd təsərrüfatı istehsalının xeyli artdığını deyən Əli Əhmədov kənd təsərrüfatı istehsalının Azərbaycanın ümumi məhsulunun formalaşmasında, eyni zamanda, ümumi iqtisadi konsepsiyanın həyata keçirilməsində daha mühüm rol oynadığını diqqətə çatdırıb.

Baş nazirin müavini deyib: **"Azərbaycanda ixrac potensialının artırılmasında da biz kənd təsərrüfatına böyük inamla baxırıq. Güman edirəm ki, Azərbaycanın kənd təsərrüfatı, bütövlükdə, ixrac potensialının daha da yüksəlməsinə öz töhfəsini verəcək. Kənd təsərrüfatının inkişaf etdirilməsi əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm vəzifələrdən biridir. Bunun üçün Azərbaycan hökuməti bütün qlobal layihələrdə yaxından iştirak edir".**

Ölkəmizdə qeyri-neft sektoruna xüsusi diqqət yetirildiyini deyən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu sektorun əsas aparıcı istiqamətlərindən biri də aqrar sektordur. Azərbaycanın aqrar sahədə əldə etdiyi nailiyyətlər nümunəvi xarakter daşıyır.

Nazir qeyd edib ki, Azərbaycanın ən böyük uğurlarından biri 2001-2015-ci illərdə yoxsulluğun səviyyəsini 4,9 faizə endirməsidir. Qarşımızda duran vəzifə 2030-cu ilə kimi yoxsulluğu 0 səviyyəsinə endirməkdir.

**"Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq qurumlarla, xüsusən FAO ilə sıx əməkdaşlıq edir. Hesab edirəm ki, FAO-nun Azərbaycan üçün 2016-2020-ci illər ölkə proqramı çərçivəsində nəzərdə tutulan bir sıra tədbirlərin birgə icrası dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına öz müsbət töhfəsini verəcək. Biz bu il təşkilatla konkret sahələr üzrə, o cümlədən toxumçuluq, heyvandarlıq sahəsində bir sıra layihələrin icrasını planlaşdırırıq. Bu sahədə həyata keçirilən tədbirlər birgə işimizin əhəmiyyətini daha da artıracaq. Hər iki qurum məşğulluq sahəsində "Aqrar Məşğulluğun Artırılması Layihəsi"nin birgə icrasını planlaşdırır. Bu layihə həm məşğulluğun, həm də aqrar sahədə məhsuldarlığın artırılmasına xidmət edəcək. Bundan başqa, Kənd Təsərrüfatı Nazirliyi və FAO qadınların məşğulluğunun artırılması sahəsində xüsusi proqram nəzərdə tutub",** - deyə nazir vurğulayıb.

BMT-nin rezident əlaqələndiricisi Qulam İsakzai bildirib ki, hazırda dünyada 850 milyon insan aclıq içində yaşayır. Uşaqların üçdəbiri yetərincə qidalanmır. Biz çalışmalıyıq növbəti 12 ildə yoxsulluğu və aclığı azaldaq. Bu baxımdan kənd təsərrüfatı və ərzaq dayanıqlı inkişaf məqsədinin mərkəzində dayanır. Kənd təsərrüfatı bir sıra DİM-lərin əldə olunmasına kömək edir. Bitkiçilik, heyvandarlıq, meşəçilik, balıqçılıq dünyada ən iri işəgötürəndir və yoxsul əhali üçün əsas qida və gəlir mənbəyidir. 2018-ci ildə Azərbaycanın qeyri-neft iqtisadiyyatı 2,1 faiz artıb. Biz çalışırıq ki, dayanıqlı inkişaf məqsədlərinin bütün sektorlar, o cümlədən kənd təsərrüfatında nail olunmasına töhfə verək. BMT FAO ilə bu sahədə yaxından əməkdaşlıq edir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qurumun regionlarda fəaliyyəti, aqrar sahədə mövcud vəziyyət, kənd təsərrüfatı sektorunun inkişafı barədə danışıb.

Seminar sessiyalarla işini davam etdirib.

Tədbirdə kənd təsərrüfatı, ərzaq, meşə təsərrüfatı və balıqçılıq fəaliyyətlərinin Azərbaycanda DİM-lərə nail olunması üçün verəcəyi töhfənin artırılması yolları və lazımi tədbirlər müzakirə olunub.

# Nazir İnam Kərimov: Aqrar sahənin inkişafının təmini müasir və innovativ texnologiyaların tətbiqi ilə bağlıdır




Azərbaycan son illər aqrar sahədə mühüm irəliləyişlərə nail olub və bu nümunəvi xarakter daşıyır. Dövlətimiz tərəfindən bu istiqamətdə konkret strategiya müəyyən edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 24-də Azərbaycanda dayanıqlı ərzaq və kənd təsərrüfatının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması (DİM) töhfəsinin sürətləndirilməsi mövzusuna həsr edilən Milli Seminarda kənd təsərrüfatı naziri İnam Kərimov deyib.

Onun sözlərinə görə, Kənd Təsərrüfatı Nazirliyi bu strategiyanın həyata keçirilməsində əsas dövlət qurumlarından biridir və nazirlik hazırda bu sahədə qarşısında qoyulan vəzifələrin icrası ilə məşğuldur.

İ.Kərimov bildirib ki, nazirliyin əsas məqsədlərindən biri də respublika əhalisinin ərzaq təhlükəsizliyinə nail olmaq, qidalandırmanı yaxşılaşdırmaq, kənd təsərrüfatının dayanıqlı inkişafını təmin etmək, eyni zamanda, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdir.

Nazir, həmçinin vurğulayıb ki, bugünkü gündə aqrar sahənin inkişafının təmini müasir və innovativ texnologiyaların tətbiqi ilə bağlıdır.

# Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində tədbirlər görülür





Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində məqsədyönlü islahatlar aparılaraq bu sahədə qanunvericilik təkmilləşib, hakimlərin şəffaf seçim qaydası müəyyən olunaraq hakim korpusu 60 faiz təzələnib, insanların müraciət imkanlarının asanlaşdırılması məqsədilə yeni məhkəmələr yaradılıb, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və məhkəmə infrastrukturunun müasirləşməsi üzrə əməli işlər həyata keçirilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və mülki dövriyyənin kəskin artması nəticəsində məhkəmələrin iş həcminin dəfələrlə çoxalması nəzərə alınaraq, bu sahədə zəruri addımlar atılır, o cümlədən mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutunun tətbiqi üzrə tədbirlər görülür.

Azərbaycan Prezidentinin tapşırıqlarına uyğun olaraq, məhkəmə qərarlarının ədalətliliyi, məhkəmələrdə şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi və vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması daim diqqət mərkəzində saxlanılır. Məhkəmə-Hüquq Şurasının qərarları ilə 100-dən çox hakim vətəndaşlarda haqlı narazılıq doğuran nöqsan və pozuntulara yol verdiklərinə görə məhkəmə sistemindən kənarlaşdırılıb, o cümlədən korrupsiya hüquqpozmalarına görə 35 hakim ciddi intizam məsuliyyətinə cəlb edilib.

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər davam etdirilərək, ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun Ağstafa rayonuna səfəri çərçivəsində Gəncə Apellyasiya Məhkəməsinin və onun yurisdiksiyasına daxil olan bölgənin birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin, habelə Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin iştirakı ilə geniş zona müşavirəsi keçirilib.

Müşavirədə məhkəmə fəaliyyətində yol verilən nöqsanlar, daxil olan şikayətlər və onları doğuran səbəblər, bununla əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Tədbirdə Prezident İlham Əliyevin qəti siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizənin aparıldığını vurğulayan Fikrət Məmmədov məhkəmə fəaliyyətində korrupsiyaya şərait yaradan halların yolverilməzliyini diqqətə çatdırıb. Vətəndaşların əsassız get-gələ salınması, işlərə baxılmamasının süründürülməsi, habelə bəzi hakimlərin qeyri-etik davranışı qeyd olunaraq belə halların insanları narazı saldığı, şikayətlər doğurduğu bildirilib.

Bununla bağlı hakim adına və nüfuzuna xələl gətirən hərəkətlərin yolverilməzliyi, lazımi nəticə çıxarmayan və işində dönüş yaratmayan hakimlərə məhkəmə sistemində yer olmadığı qeyd edilib. Bildirilib ki, hazırda 80-dək hakimin fəaliyyətinin prinsipial qiymətləndirilməsi aparılır, habelə yeni qaydalar əsasında şəffaf prosedurlarla seçilmiş 100-dən çox hakimliyə namizədin təyinatı nəzərdə tutulur.

Müşavirədə apellyasiya məhkəmələrindən prinsipiallığın artırılması, qanun pozuntularına ciddi reaksiya verilməsi, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

Həmçinin məhkəmə sistemində şəffaflığın artırılması üzrə əlavə tədbirlərin görülməsi, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, etik davranış qaydalarına dürüst əməl edilməsi üzrə qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

# YAP Nizami rayon təşkilatının 25 illik yubileyi qeyd olunub



Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının yaranmasının 25-ci ildönümü münasibətilə Heydər Əliyev adına Neft Emalı Zavodunda tədbir keçirilib. Tədbir Nizami rayon İcra Hakimiyyəti və YAP Nizami rayon təşkilatı tərəfindən birgə təşkil olunub.

YAP Nizami rayon təşkilatından AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə iştirakçılar Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra YAP Nizami rayon təşkilatının 25 illik fəaliyyətinə həsr olunan film nümayiş etdirilib.





Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi təşkilatları arasında bərabəri olmayan bir partiyadır. YAP Nizami rayon təşkilatının da partiyanın əldə etdiyi nailiyyətlərdə rol oynadığını vurğulayan S.Vəliyeva deyib: **"Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il sentyabrın 11-də Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 143 ərazi ilk partiya təşkilatında 14 minə qədər insan birləşib".**

YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib ki, YAP Azərbaycanın son dərəcə ağır zamanında, ölkədə hərc-mərcliyin baş alıb getdiyi bir dövrdə yaranıb. Həmin illərdə Azərbaycanda bir sıra siyasi partiyalar fəaliyyət göstərsələr də, onlar arasındakı daxili çəkişmələr imkan vermirdi ki, ölkədə yaranan böhran aradan qaldırılsın. Azərbaycan müstəqilliyi itirməyə doğru gedirdi. Bunu görən, xalqının taleyinə laqeyd qala bilməyən insanlar ölkəmizin işıqlı gələcəyi naminə yeni çağırışlara cavab verə biləcək partiya yaratmaq təşəbbüsü ilə çıxış ediblər. Bu məqsədlə Ümummilli lider Heydər Əliyevin ətrafında sıx birləşərək, Yeni Azərbaycan Partiyasını yaratmağa nail olublar. 1992-ci il noyabrın 21-də Ulu öndər Heydər Əliyevin Sədrliyi ilə təsis konfransı keçirilib və Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi qəbul edilib, Ümummilli lider yekdilliklə partiyanın Sədri seçilib. Beləliklə də, müstəqil Azərbaycanın yeniliyə açıq, xalqın partiyası - Yeni Azərbaycan Partiyası yaranıb.

YAP Siyasi Şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, Ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil, demokratik Azərbaycan Onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir, inkişafını davam etdirir. O, Yeni Azərbaycan Partiyasının xalqı öz ətrafına birləşdirərək ümumxalq partiyasına çevrildiyini, eyni zamanda, ölkədə demokratiyanın inkişafında aparıcı qüvvə kimi özünü təsdiqlədiyini bildirib. Qeyd edib ki, YAP-ın amalı xalqa, Vətənə, dövlətə sədaqətlə xidmət etməkdən ibarətdir.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır. Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilati struktur yaradaraq avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin, etimadının dayandığını bir daha sübut edir.

Tədbirdə digər çıxış edənlər diqqətə çatdırıblar ki, Prezident İlham Əliyevin doğma, müstəqil ölkəmizin inkişafı, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər, onun real nəticələri partiyanın hər bir üzvü qarşısında daha məsul vəzifələr qoyur.

Sonda YAP Nizami rayon təşkilatının yaradılmasında xidmətləri olmuş bir qrup şəxsə xatirə hədiyyələri təqdim olunub.

# Bakı şəhəri və Şuşa rayonunun məktəbləri arasında əməkdaşlıq əlaqələri qurulur







Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi və Nizami rayon təşkilatlarının təşəbbüsü ilə Bakı şəhəri Nizami rayonu 62 nömrəli, Nəsimi rayonu 247 nömrəli və Şuşa rayonunun 18, 19, 21 nömrəli məktəbləri arasında əməkdaşlıq əlaqələri yaradılır. Məktəblər arasında əməkdaşlıq əlaqələri "Təhsilə dəstək" layihəsi çərçivəsində imzalanan niyyət protokoluna əsasən qurulur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Bayram Səfərov, Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Sədaqət Vəliyeva, Bakının Nizami rayonu 62 nömrəli və Nəsimi rayonu 247 nömrəli məktəblərinin direktorları Bərdə və Ağdam rayonlarına səfər edib, Şuşa rayonu 18, 19, 21 nömrəli məktəblərdə görüşlər keçiriblər.

Qonaqlar əvvəlcə Bərdədə 588 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksindəki 18 nömrəli məktəbə gəliblər. Görüşdə Şuşa Rayon Təhsil İdarəsinin müdiri Təvəkkül Əliyev çıxış edərək, layihə haqqında məlumat verib. Bildirib ki, Baş nazirin müavini, YAP-ın Sədr müavini-icra katibi Əli Əhmədov təhsilə dəstək layihəsi çərçivəsində məktəblərin bir-biri ilə əlaqə yaratması ilə bağlı təşəbbüs irəli sürüb. Bu təşəbbüsə ilk olaraq YAP-ın Nəsimi və Nizami rayon təşkilatlarının sədrləri, həmçinin Bakının Nizami rayonu 62 nömrəli və Nəsimi rayonu 247 nömrəli məktəblərinin direktorları qoşulublar. Layihəyə əsasən Bakının Nizami rayonunun 62 nömrəli və Nəsimi rayonunun 247 nömrəli məktəbləri ilə hamiliyə götürülmüş Şuşa rayonunun 18, 19, 21 nömrəli məktəbləri arasında əlaqələrin qurulması təhsilin inkişafına dəstək verəcək.

Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Sədaqət Vəliyeva çıxışlarında layihənin əhəmiyyətini vurğulayıb, doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərə, təhsilin inkişafına göstərilən dövlət qayğısından danışıblar. Bildirilib ki, layihə digər məcburi köçkün rayonlarının məktəblərini də əhatə edəcək. Məktəblər arasında əlaqələr məcburi köçkün məktəbləri torpaqlarımız işğaldan azad edildikdən sonra da davam etdiriləcək.

Nizami rayonu 62 nömrəli məktəb-liseyin direktoru Mətanət Cabbarlı və Nəsimi rayonu 247 nömrəli məktəbin direktoru Nihal Hacıyeva çıxışlarında bildiriblər ki, fəaliyyət planına uyğun olaraq təhsil ocaqları arasında əlaqələr mütəmadi olaraq davam edəcək. Məktəblər arasında təhsil mübadiləsi keçiriləcək, Şuşa rayonu 18, 19, 21 nömrəli məktəblərin müəllim və şagirdləri Bakının Nizami rayonunun 62 nömrəli və Nəsimi rayonunun 247 nömrəli məktəblərinin qonağı olacaq, məktəblilər arasında dostluq münasibətləri qurulacaq.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Bayram Səfərov Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyətindən, qaçqın və məcburi köçkünlərə göstərilən diqqət və qayğıdan danışıb, işğal olunmuş torpaqlarımızın azad ediləcəyinə əminliyini ifadə edib.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Sədaqət Vəliyeva və digər qonaqlar Bərdə rayonunun Şirvanlı kəndində yerləşən Şuşa rayonu 19 nömrəli və Ağdam rayonu ərazisindəki Mirzələr qış yatağında yerləşən 21 nömrəli məktəblərdə də olub, müəllim, şagird və valideynlərlə görüşüblər. Məktəblərə və şagirdlərə hədiyyələr verilib.

Milli Məclisin deputatı Məlahət İbrahimqızı jurnalistlərə müsahibəsində bildirib ki, YAP-ın "Təhsilə dəstək" layihəsi davamlı olacaq və torpaqlarımız işğaldan azad olunduqdan sonra da Şuşada, Xankəndidə, Ağdamda, Laçında, Kəlbəcərdə və digər bölgələrimizdə həyata keçiriləcək. **"Azərbaycan əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətində prioritet təşkil edir. Məcburi köçkünlər üçün yeni qəsəbələr salınır, onların mənzil-məişət şəraitinin və sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. "Təhsilə dəstək" layihəsi kimi təşəbbüslərdə əsas məqsədlərdən biri odur ki, cəmiyyətin hər bir üzvü qaçqın və məcburi köçkün məsələsinə daim diqqətlə yanaşmalı, torpaqlarımız işğaldan azad olunana qədər onlarla bir yerdə olmalıdır",** - deyə M.İbrahimqızı bildirib.

# Səfa Mirzəyev: Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq nəticəsində böyük uğurlar əldə olunub



Sentyabrın 24-də Tbilisidə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramına üzv ölkələrin parlamentlərinin aparat rəhbərlərinin işçi iclası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Gürcüstan parlamenti və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə maliyyə dəstəyi ilə keçirilən iclasda Azərbaycan, Gürcüstan, Moldova, Belarus, Ukrayna və Ermənistan parlamentləri aparatlarının rəhbərləri iştirak edirlər.

İki gün davam edəcək tədbirdə ölkəmizi Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və beynəlxalq münasibətlər şöbəsinin müdiri Rəşid İbrahimov təmsil edirlər.

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze çıxışında bildirib ki, Şərq Tərəfdaşlığı ölkələri arasında bir çox formatlarda uğurlu əməkdaşlıq həyata keçirilir. Gürcüstan bu ölkələrin parlamentləri arasında əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş bütün təşəbbüsləri bundan sonra da dəstəkləməyə hazırdır.

Gürcüstan parlamentinin aparat rəhbəri Givi Mikanadze çıxışında bildirib ki, Şərq Tərəfdaşlığına üzv ölkələrin parlament sədrləri qanunverici orqanlar arasında əməkdaşlığa xüsusi diqqət yetirirlər. Bu da aparat rəhbərləri arasında əməkdaşlığı daha da möhkəmləndirməyə geniş imkanlar yaradır.

Almaniya parlamentinin nümayəndəsi Ulriç Sköler Şərq Tərəfdaşlığına üzv ölkələrin parlamentləri arasında sıx əlaqələrin və dialoqun qurulmasının vacibliyini qeyd edib. Bildirib ki, Bundestaq parlamentlər arasında birbaşa əlaqələrin gücləndirilməsini dəstəkləyir.

İşçi görüş sentyabrın 25-də "Parlamentlərarası əməkdaşlığın gələcəyi" mövzusunda sessiya ilə davam etdiriləcək. Tədbirin yekunu olaraq Tbilisi memorandumu imzalanacaq.

Səfa Mirzəyev tədbirlə bağlı AZƏRTAC-a müsahibəsində deyib: **"Azərbaycan 1996-cı ildə Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq sazişi imzalayıb. 2006-cı ildə mövcud proqrama qoşulub. Ötən illər ərzində Avropa Parlamenti ilə də sıx əlaqələr qurulub və səmərəli əməkdaşlıq həyata keçirilir. Azərbaycan 2009-2011-ci illərdə Avropa İttifaqı ilə "Tvinninq" layihəsi həyata keçirib. Əsas məqsədi Azərbaycan qanunvericiliyini Avropa qanunvericiliyinə uyğunlaşdırmaq olan layihənin həyata keçirilməsində 43 ölkənin ekspertləri iştirak ediblər. Hazırda bu sahədə çox mühüm nailiyyətlər əldə olunub".**

Layihə çərçivəsində Azərbaycan nümayəndə heyəti Avropanın təcrübəsini öyrənib.

Səfa Mirzəyevin sözlərinə görə, Gürcüstan parlamenti aparatının rəhbərinin təşəbbüsü ilə keçirilən bu tədbirdə Şərq Tərəfdaşlığı ölkələri parlament rəhbərləri arasında əməkdaşlıq məsələləri müzakirə olunacaq: **"Biz də bu tədbirə qoşulmuşuq və hesab edirik ki, parlamentlərin baş katiblikləri arasında əməkdaşlıq çox vacibdir".**

Aparat rəhbəri qeyd edib ki, tədbirin sonunda tərəflər arasında əməkdaşlığa dair memorandum imzalanacaq. Amma Azərbaycan bu sənədi imzalamayacaq: **"Azərbaycan tərəfi heç bir zaman əməkdaşlıqdan imtina etməyib. Əksinə, hər zaman əməkdaşlıqda maraqlı olub. Lakin bilirsiniz ki, Azərbaycanın torpaqları işğal olunub. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmayana qədər Ermənistan ilə heç bir əməkdaşlıq olmayacaq".**

Toplantıda Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov da iştirak edir.

# Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtması müasir tariximizdə dönüş nöqtəsi oldu

*Ümummilli liderimiz Heydər Əliyev tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu*

Xəbər verildiyi kimi, sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib. Həmin iclasdakı



***Aydın Hüseynov:** Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti bütöv bir tarixdir, Azərbaycan xalqı üçün örnəkdir*



***Azər Badamov:** Ulu öndər Heydər Əliyevin zamanında atdığı praqmatik addımlar bir əsrdə ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycanın öz mövcudluğunu qoruyub saxlamasını təmin etdi*

çıxışında bir sıra mühüm və strateji məqamlara toxunan Prezident İlham Əliyev bildirib ki, 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Ölkə Prezidenti həmçinin ikinci dəfə müstəqillik əldə olunandan sonrakı ilk illərin Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunduğunu da vurğulayıb. Həqiqətən də, 1991-ci ildə SSRİ-nin dağılmasından sonra müstəqillik qazanan ölkəmizdə istər iqtisadi, istərsə də siyasi böhranın hökm sürməsi, hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi və xalqla birgə olmaması suverenliyimizin yenidən itirilməsi təhlükəsini yaratmışdı. 1992-ci ildə baş vermiş dövlət çevrilişindən sonra isə vəziyyət daha da ağırlaşmışdı. Bunun nəticəsində isə Ermənistan tərəfindən torpaqlarımız işğal olundu, Azərbaycan iqtisadiyyatı tamamilə iflic oldu.

Belə çətin bir vəziyyətdə Azərbaycan xalqı yeganə nicat yolunu Ulu öndər Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etməkdə gördü. Məhz xalqımızın təkidi ilə 1993-cü ilin iyununda Naxçıvandan Bakıya qayıdan Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı çətin sınaqlardan çıxardı, müstəqilliyimizi qoruyub saxladı. Beləliklə, həmin dövrdə bütün ölkəni, xalqı vahid ideologiya ətrafında birləşdirən Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dövləti problemləri dəf etməyə nail oldu. Uğurlu neft strategiyası ölkəmizin gələcək inkişafının möhkəm təməlinə çevrildi. Prezident İlham Əliyevin Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasdakı çıxışında bəyan etdiyi kimi, bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi. Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir: **“1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü. Azərbaycana böyük həcmdə sərmayə qoyuluşunun təmin edilməsində Heydər Əliyevin müstəsna rolu var. Dünən biz “Əsrin kontraktı”nın 24-cü ildönümünü qeyd etdik və “Əsrin kontraktı” olmadan Azərbaycanın bugünkü sürətli inkişaf dinamikasını təsəvvür etmək mümkün deyil”.**

Məsələ ilə bağlı fikirlərini bildirən Milli Məclisin deputatı Aydın Hüseynov da deyib ki, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu, məhz Ulu öndərin qayıdışından sonra müstəqilliyimiz təhlükədən xilas oldu və ölkədə sabitlik bərpa olundu. Millət vəkili qeyd edib ki, həmin dövrdə Ümummilli liderimizin həyata keçirdiyi mühüm işlər nəticəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu və dünyada tanınmağa başladı: **“Əgər həmin çətin dövrdə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan xalqının başına hansı faciələrin gələcəyini heç kim bilmirdi. O vaxt səriştəsiz hakimiyyətin fəaliyyəti nəticəsində Azərbaycanın müstəqilliyi təhdid altında idi, lakin Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan bu bəlalardan qurtuldu və dövlət quruculuğu istiqamətində böyük işlər həyata keçirilməyə başlandı”.**

A.Hüseynov vurğulayıb ki, bu gün Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada Ulu öndər Heydər Əliyevin əməyi, nişanəsi olmasın: **“Ümummilli lider Heydər Əliyev həyatının böyük hissəsini Azərbaycan xalqına həsr edib və bu gün bütün sahələrdə Ulu öndərin əməyi özünü göstərir. Ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyəti bütöv bir tarixdir, Azərbaycan xalqı üçün örnəkdir”.**

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən millət vəkili bildirib ki, məhz dövlət başçısının yorulmaz və qətiyyətli fəaliyyəti nəticəsində Azərbaycan dünyanın sayılıb-seçilən, qüdrətli dövlətlərindən birinə çevrilib.

Milli Məclisin deputatı Azər Badamov isə deyib ki, 1991-ci ildə yenicə müstəqillik əldə etmiş Azərbaycan qısa bir zamandan sonra xaosun, özbaşınalığın hökm sürdüyü bir ölkəyə çevrilmişdi. Bunun ən böyük səbəbi isə səriştəsiz hakimiyyət və idarəçilik bacarığının olmaması idi. A.Badamov qeyd edib ki, müstəqilliyimizin ilk illərində bir-birini sürətlə əvəz edən respublika rəhbərləri xalqın ürəyində həmişə yaşatdığı və həsrətində olduğu müstəqilliyi qoruyub saxlamaq, habelə möhkəmləndirmək üçün zəruri tədbirlər görmək, ölkənin iqtisadi gücündən və potensialından səmərəli istifadə etmək əvəzinə, milli maraqları şəxsi mənafeyə qurban verərək fəaliyyətdə və inkişafda olan hər şeyi dağıdırdılar: **“Azərbaycan dövlətçiliyinin bu çətinliklərdən xilası yalnız Ulu öndər Heydər Əliyevin Bakıya gəlişi ilə mümkün ola bilərdi. Ümummilli liderimiz Heydər Əliyev bu məsuliyyəti Öz çiyinlərinə götürdü və 1993-cü ilin iyununda xalqının təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdı. Məhz bundan sonra Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi, bütün sahələrin inkişafına xidmət edən mühüm addımlar atıldı”.**

Millət vəkili əlavə edib ki, Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbə ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu: **“Ulu öndər Heydər Əliyevin zamanında atdığı praqmatik addımlar bir əsrdə ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycanın öz mövcudluğunu qoruyub saxlamasını təmin etdi. İctimai-siyasi sabitliyin təmin edilməsi və sistematik səciyyəli kompleks tədbirlərin görülməsi nəticə etibarilə yeni cəmiyyət və qeyri-formal milli dövlət quruculuğu prosesinin başlanmasını mümkün edən strateji faktor oldu. Ulu öndər Heydər Əliyev tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu”.**

Millət vəkili onu da bildirib ki, əsası Ümummilli liderimiz tərəfindən qoyulan inkişaf siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: **“Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz mühüm nailiyyətlər əldə edib, sosial-iqtisadi inkişafa nail olub, regionda lider ölkə statusunu qazanıb. Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində özünəməxsus yeri olan önəmli bir ölkədir”.**

**Pərviz SADAYOĞLU**

# Bakıda Səudiyyə Ərəbistanının milli bayramı qeyd edilib





Sentyabrın 24-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Krallıq elan olunması günü münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra müvəqqəti işlər vəkili Məmduh əl-Cəbru Səudiyyə Ərəbistanının keçdiyi inkişaf yolundan, müxtəlif sahələri əhatə edən uğurlara imza atmasından danışıb.

Səfir Səudiyyə Ərəbistanının beynəlxalq və regional miqyasda artan mövqeyinə də toxunub. O, Səudiyyə Ərəbistanı Krallığının İslam dünyasının birliyi, əməkdaşlığı yolunda daim çalışdığını vurğulayıb.

Diplomat ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini bildirib. Hər iki ölkə arasında əlaqələrin inkişafında mühüm mərhələnin baş verdiyini vurğulayıb. Səfir ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr Mübariz Qurbanlı rəsmi qəbulda çıxış edərək Azərbaycan hökuməti adından Səudiyyə Ərəbistanı xalqını təbrik edib, sülh və əmin-amanlıq arzulayıb. O deyib ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələr mehriban dostluq və tərəfdaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına ilk səfəri ilə əsası qoyulmuş yüksək səviyyəli siyasi münasibətlər sonrakı illərdə durmadan inkişaf edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərləri çərçivəsində dövlət başçılarımız arasında, eləcə də digər səviyyələrdə keçirilmiş çoxsaylı görüşlər həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın inkişafına təkan verib. Səudiyyə Ərəbistanı həmişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini dəstəkləyir, işğalçılıq siyasəti aparan Ermənistanla diplomatik əlaqələr qurmaqdan imtina edir. Ölkələrimiz arasında əlaqələr gələcəkdə daha da inkişaf edəcək.

# Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilib





Sentyabrın 24-də Respublika Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransda Respublika Hərbi Prokurorluğu, Bakı Hərbi Prokurorluğunun əməkdaşları, prokurorluğun veteranları, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə qurumun inzibati binasında Ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq nurlu xatirəsini dərin ehtiramla yad ediblər.

Konfransı giriş nitqi ilə açan Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev Azərbaycan Prokurorluğunun bir əsrlik tarixinə nəzərə salıb. Qeyd edib ki, yarandığı gündən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı, SSRİ prokurorluğunun tərkib hissəsi kimi, həmçinin ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra uzunmüddətli və mürəkkəb inkişaf yolu keçmiş Azərbaycanın milli prokurorluq orqanları zamanın sərt imtahanlarına məruz qalsa da, sınaqlardan məharətlə çıxaraq cəmiyyətdə hörmət və etibar qazanıb. Hərbi prokuror Xanlar Vəliyev vurğulayıb ki, Ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsini respublikamızda həyata keçirilən hüquqi islahatların əsas qayəsi və məqsədi kimi önə çəkib. Yüz il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başlamış prokurorluq Ulu öndərin hakimiyyətə qayıdışı ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində, hazırda tamamilə yenidən qurularaq, mütərəqqi normativ-hüquqi bazaya, demokratik məzmunlu fəaliyyət prinsiplərinə və iş metodlarına malik olan, cəmiyyətdə statusuna uyğun yerini tutmuş təsisata çevrilib.

Respublikanın hərbi prokuroru məhz Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabrın 1-nin “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd edilməsinin tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olduğunu bildirib.

Qeyd olunub ki, müasir müstəqil Azərbaycanın banisi Ulu öndər Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün də prokurorluğa dövlət qayğısı və diqqəti ən yüksək səviyyədədir. Prezidentin müvafiq fərman və sərəncamları ilə təsdiq olunmuş Dövlət proqramlarının icrası nəticəsində prokurorluq orqanlarında bütün istiqamətlər üzrə işin səmərəliliyinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, həmçinin yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirilib.

Ulu öndərin “Mən, Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram” kəlamının bu gün də hər bir prokurorluq işçisinin qürur mənbəyi olmaqda davam etdiyini bildirən ədliyyə general-leytenantı Xanlar Vəliyev müstəqilliyinin 27-ci ilini yaşayan Azərbaycanın Ümummilli lider Heydər Əliyev və Onun ideyalarının sadiq davamçısı Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində böyük uğurları ilə dünyanın diqqət mərkəzində olduğunu, dövlət başçısının apardığı siyasətə xalqımızın tam dəstək verməsinin, iqtidar-xalq birliyinin formalaşmasının ölkəmizin əldə etdiyi və gələcəkdə qazanacağı uğurlarının təməlini təşkil etdiyini vurğulayıb.

Respublikanın hərbi prokuroru dövlət başçısı tərəfindən həyata keçirilmiş qətiyyətli addımlar nəticəsində ordumuzun qüdrətinin hər gün daha da artdığını diqqətə çatdırıb. Bildirib ki, 2016-cı ilin aprel və 2018-ci il ilin may aylarında həyata keçirilmiş uğurlu döyüş əməliyyatları nəticəsində işğal altındakı torpaqlarımızın bir hissəsinin, həmçinin Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisinin və Günnüt kəndinin azad edilməsi ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an hazır olduğunu və qələbə əzmini əyani nümayiş etdirib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı Musa Quliyev və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyi və qarşıdan gələn prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə respublika hərbi prokurorluq orqanlarının əməkdaşlarının timsalında bütün prokurorluq əməkdaşlarını təbrik edərək onlara dövlətimizin və dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunması istiqamətindəki yorulmaz fəaliyyətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, vaxtilə Ulu öndər Heydər Əliyevin və hazırda Prezident İlham Əliyevin prokurorluq işçilərinin əməyinə verdikləri yüksək qiymət hər bir prokurorluq işçisində xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi və iftixar hissi yaradır və onları öz fəaliyyətlərinə daha tələbkar, məsuliyyətlə yanaşmağa səfərbər edir.

Sonra Bakı Hərbi Prokurorluğunun müavini, ədliyyə mayoru Raul Şahverdiyev “Azərbaycan Prokurorluğunun yaranması və inkişaf tarixi”, Respublika Hərbi Prokurorluğunun hüquqi təminat və kadrlar şöbəsinin böyük prokuroru, ədliyyə mayoru Vüsal Əliyev “Hərbi Prokurorluğun prokurorluq orqanları sistemində rolu, prokurorluğun müasirləşdirilməsi istiqamətində aparılan hüquqi islahatlar və prokurorluq orqanlarının fəaliyyətinin hüquqi təminatı”, hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuror-metodisti, ədliyyə polkovnik-leytenantı Mehman Poladov “Milli dövlətçiliyin möhkəmləndirilməsində və müasir dövrdə təşəkkül tapmasında prokurorluq orqanlarının iştirakı”, Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin rəisi, ədliyyə polkovniki Toğrul Hüseynov “Korrupsiyaya qarşı mübarizə prokurorluğun prioritet fəaliyyət istiqaməti kimi” mövzularında çıxışlar ediblər.

Konfransa yekun vuran respublika hərbi prokuroru Xanlar Vəliyev prokurorluq orqanları işçilərinin qarşıdan gələn peşə bayramı günü və prokurorluğun yaradılmasının 100 illiyi münasibətilə prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini bir daha təbrik edərək, prokurorluğun yüksək mövqe tutan bir qurum kimi formalaşmasında Ulu öndərin misilsiz xidmətlərini minnətdarlıqla vurğulayıb. Prokurorluq orqanlarından yüksək diqqət və qayğısını əsirgəməyən Prezident İlham Əliyevə dərin ehtiramını bildirərək əmin edib ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu bundan sonra da Silahlı Qüvvələrdə qanunçuluğun möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim gücləndirəcək, insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe tutacaq, insan amili ilə bağlı hər bir məsələdə həssaslıq göstərəcək. Hərbi prokurorluğun əməkdaşları dövlətimizin əbədi yaşaması, xalqımızın rifahı naminə Heydər Əliyev ideallarına sədaqət nümayiş etdirəcək, qanunla üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.

Tədbirdə xidməti fəaliyyətində fərqlənən bir qrup əməkdaş müxtəlif medallarla təltif olunub, həmçinin prokurorluğun veteranlarına hədiyyələr təqdim edilib.

# Baş Prokurorluğun nümayəndə heyəti MDB dövlətləri Baş prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib




Sentyabrın 20-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 28-ci iclası keçirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, MDB prokurorluq orqanları əməkdaşlarının iştirak etdikləri tədbirdə ölkəmizi baş prokurorun birinci müavini Rüstəm Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Şuranın iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat verərək, Azərbaycan Respublikası Baş Prokurorluğunun daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət mövzusunda çıxış edib.

Tədbirdə “Sərxoş vəziyyətdə nəqliyyat vasitələrinin idarə edilməsinə qarşı mübarizə” (Belarus), “Prokuror nəzarətinin təkmilləşdirilməsində informasiya texnologiyalarının istifadəsi” (Qazaxıstan), “Korrupsiyaya qarşı mübarizə və qarşısının alınması məsələlərində prokurorluq orqanlarının əlaqələndirici rolu” (Qırğızıstan), “2016-2020-ci illər üçün ekstremizm və terrorizmlə mübarizədə milli strategiyanın həyata keçirilməsi praktikası” (Tacikistan) və sair mövzularda çıxışlar dinlənilib, faydalı fikir mübadiləsi aparılıb.

Yekunda Rusiya Federasiyasının baş prokuroru Yuri Çayka növbəti bir il müddətinə yenidən Şuranın sədri seçilib və təşkilatın 2019-cu ildəki iclasının Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində nümayəndə heyəti Tacikistanın baş prokuroru Yusuf Rahmonla ikitərəfli görüş keçirib. Bu il avqustun 10-da Bakıda imzalanmış “Azərbaycan Respublikasının Baş Prokurorluğu və Tacikistan Respublikasının Baş Prokurorluğu arasında Əməkdaşlıq haqqında Saziş”də göstərilən müddəaların həyata keçirilməsi məqsədilə bu ilin noyabr-dekabr aylarında Tacikistan nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə Azərbaycana səfərə dəvət olunub.

# Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət, bölgədə cərəyan edən proseslər və geosiyasi amillər torpaqlarımızın işğaldan azad olunması üçün yeni imkanlar yaradır



**<u>Milli Məclisin deputatı, ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev www.yap.org.az saytına müsahibə verib</u>:**

**- Azay müəllim, bu gün Azərbaycan dünyada böyük nüfuza sahib olan ölkədir. Azərbaycan bir sıra regional və transmilli layihələrlə dünyanın diqqət mərkəzindədir. Ölkəmizin beynəlxalq müstəvidə artan rolu haqqında fikirlərinizi bilmək istərdik...**

- Bu gün Azərbaycan özünün əldə etdiyi uğurlarla beynəlxalq aləmdə çox böyük nüfuza sahibdir. Bu, bir həqiqətdir ki, dünyanın əksər dövlətləri Azərbaycana etimad göstərir, bizimlə yaxından əməkdaşlıq etmək istəyir və ölkəmiz beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi tanınır. Bunun isə sadə bir səbəbi var. Prezident İlham Əliyev xarici və daxili siyasətdə ardıcıl və proqnozlaşdırılan siyasət həyata keçirir, milli maraqlarımızı bütün müstəvilərdə qorumağı bacarır, heç bir təzyiq və diktə ilə qərar qəbul etmir, verdiyi vədə əməl edir və sözün əsl mənasında, ölkəmizin müstəqilliyini qoruya bilir. Bu cür prinsipal mövqe sərgiləyən, açıq və şəffaf siyasət həyata keçirən bir ölkə, şübhəsiz ki, bütün tərəfdaşların rəğbətini qazanır, dünyada nüfuzu artır və ona hər kəs hörmətlə yanaşır. Bütün bunlar əsas verir ki, Azərbaycan bizim hamımızın bildiyimiz ən nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etsin, beynəlxalq və regional əhəmiyyətli enerji, tranzit, infrastruktur və digər iqtisadi layihələri uğurla həyata keçirə bilsin, 155 ölkənin dəstəyi ilə dünyanın ən mötəbər təşkilatı olan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilsin.

**- Sizcə, Azərbaycan buna necə nail olur?**

- Bu suala tam və dəqiq cavab vermək üçün Azərbaycanın xarici siyasət doktrinasına və qəbul etdiyi qərarlara diqqət yetirmək lazımdır. Əgər biz Prezident İlham Əliyevin xarici siyasət kursuna baxsaq, görərik ki, Azərbaycan MDB və Avropa məkanında çox nadir və bəlkə də, yeganə dövlətdir ki, öz prioritetlərini özü müəyyən edir, milli maraqlarına cavab verən tərəfdaş ölkələri və təşkilatları özü seçir, müxtəlif hərbi və siyasi bloklarla eyni məsafədə durmağı bacarır və onlarla hansı müstəviyə qədər əməkdaşlığa ehtiyac varsa, o qədər əməkdaşlıq etməyə sərbəst qərar verir.

Şübhəsiz ki, belə bir siyasi iradə öz bəhrəsini verir. Belə ki, bir-biri ilə müxtəlif mövzularda ziddiyyətli və hətta münaqişəli vəziyyətdə olan dünyanın və regionun hegemon dövlətləri olan ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, Türkiyə, İran və digərləri ilə ölkəmiz çox uğurla əməkdaşlıq edir və onların arasındakı ziddiyyətlərin milli maraqlarımıza zərər vurmasına əsla imkan vermir. Bu, xarici siyasət konsepsiyasında ölkəmiz üçün çox böyük uğur hesab olunur və heç də hər kəsə nəsib olmur. Belə bir mürəkkəb geosiyasi şəraitdə milli maraqlarımıza cavab verən bu cür xarici siyasət kursunu uzun müddət davam etdirmək heç də asan məsələ deyil və bunun arxasında Azərbaycan Prezidentinin və Onun komandasının çox böyük zəhməti və yorulmaz əməyi vardır. Digər tərəfdən, Azərbaycanın iqtisadi baxımdan heç kimdən asılı olmaması və özü-özünü təmin etməsi müstəqil xarici siyasətimizi şərtləndirən əsas amillərdəndir. Yəni dövlətimizin həyata keçirdiyi çoxvektorlu, milli maraqlara əsaslanan siyasəti özünü doğruldur. Bu, Azərbaycanın müstəqilliyinin, suverenliyinin təminatının və daha da güclənməsinin tək yoludur. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu yol, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət kursu bu gün özünü tam doğruldur.

**- Yeri gəlmişkən, bu kontekstdə region dövlətləri ilə Azərbaycanı müqayisə etsək, hansı fərqli məqamları vurğulamaq mümkündür?**

- Region dövlətlərinin hazırkı durumunu az da olsa təhlil etsək və onların xarici siyasət kursunu incələsək, görərik ki, Azərbaycan onlarla müqayisədə həm kifayət qədər əlverişli vəziyyətdədir, həm də daha çox müstəqildir. Misal üçün, işğalçı Ermənistan tam olaraq Rusiyanın vassalına çevrilib və nəticədə xarici siyasətdə müstəqilliyini və suverenliyini itirib. Sarkisyanın 3 il Avropa İttifaqı ilə Assosiasiya Sazişinin imzalanması haqqında apardığı danışıqları və bu sazişin imzalanacağı tarixə 3 gün qalmış Moskvaya çağırılaraq sazişdən imtinaya məcbur edilməsini hamımız yaxşı xatırlayırıq.

Gürcüstanın isə birtərəfli qaydada Avropa İttifaqı və ABŞ ilə qurduğu siyasət ona çox baha başa gəldi. Rusiya Abxaziya və Cənubi Osetiya separatçılarını rəsmən tanıdı və hər iki regionda səfirliyini açdı. Hazırda Gürcüstanla Rusiya ikitərəfli münasibətlərinin ən gərgin dövrünü yaşayır. Ukrayna və Moldova ilə vəziyyət hamımıza bəllidir və nikbinlik üçün hər hansı bir əsas görünmür.

Ancaq Azərbaycan isə yuxarıda qeyd etdiyim kimi, işğalçı Ermənistan istisna olmaqla bütün qonşuları ilə dost və tərəfdaş münasibətlərini davam etdirir. Qardaş Türkiyə ilə münasibətlərə xüsusi toxunmağa ehtiyac görmürəm. Biz Ulu öndər Heydər Əliyevin dediyi kimi, “bir millət iki dövlət”ik. Azərbaycanın Türkiyə ilə münasibətləri mən deyərdim ki, tarixdə görünməmiş dərəcədə yüksək səviyyədədir. İranla münasibətlərimiz də çox yaxşı səviyyədədir və Xəzərin hüquqi statusu haqqında çərçivə sənədi imzalanandan sonra əlaqələrimiz daha da dərinləşib. Rusiya ilə əməkdaşlığımız isə, məncə, özünün ən dinamik dövrünü yaşayır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sentyabrın 1-də Rusiyaya rəsmi səfəri və orada imzalanan sənədlər hər iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxdığından xəbər verir. Əminəm ki, Rusiya Prezidenti Vladimir Putinin sentyabrın 25-də Bakıya gözlənilən cavab səfərində bu münasibətlərə yeni impuls veriləcək və qarşılıqlı maraqlara xidmət edən dostluğumuz daha da möhkəmlənəcək.

**- Yeri gəlmişkən, Azərbaycanın Avropa İttifaqı ilə hazırkı münasibətləri haqqında fikrinizi bilmək istərdik. Avqust ayında Almaniyanın Federal Kansleri Angela Merkelin ölkəmizə ilk səfəri, Prezident İlham Əliyevin Aİ-nın üzv ölkəsi olan Xorvatiyaya səfəri bu kontekstdə önəmlidir. Sizcə, bu səfərlər Azərbaycana nə vəd edir?**

- Bilirsiniz ki, Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər ümumən normal olsa da, əvvəllər bir sıra prinsipial məsələlərdə bizi qane etməyən məqamlar var idi. Xüsusilə, bir neçə il bundan öncə əməkdaşlığımızın yeni keyfiyyət mərhələsinə çıxarılmasına hesablanmış sənəd layihəsində ölkəmizin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı məsələsində Avropa İttifaqının birmənalı mövqe tutmaması bizi ciddi narahat edirdi. Təqdirəlayiq haldır ki, cənab Prezident İlham Əliyevin Brüsselə etdiyi son səfər zamanı bizi narahat edən bu kimi məqamlar tam olaraq aradan qalxdı. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan Tərəfdaşlıq Prioritetləri adlı sənəddə Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü dəstəklənir. Əminəm ki, bundan sonra münasibətlərimiz bütün sahələrdə daha da möhkəmlənəcək və genişlənəcək.

Avropa İttifaqının əsas aparıcı ölkəsi olan Almaniyanın kansleri xanım Merkelin bu il avqustun 25-də Azərbaycana etdiyi səfər isə həm Almaniya-Azərbaycan, həm də Avropa İttifaqı-Azərbaycan münasibətləri baxımından da çox əhəmiyyətli oldu. Merkelin Bakıda keçirdiyi görüşlərin və verdiyi bəyanatların məzmununa baxsaq, görərik ki, Almaniya Azərbaycana nə qədər böyük önəm verir və ölkəmizlə əməkdaşlığın dərinləşməsində maraqlıdır. Eyni zamanda Azərbaycan Prezidentinin Avropa İttifaqı ölkələrinə, o cümlədən Xorvatiyaya etdiyi səfərlərə də bu kontekstdən yanaşmaq lazımdır. Azərbaycan o ölkələrdəndir ki, onunla əməkdaşlıq və tərəfdaşlıq hər iki tərəfə fayda verir. Ona görə də bizim ölkəmizə maraq çox yüksəkdir. Təsadüfi deyil ki, Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında müqavilə imzalayıb.

**- Son günlər Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə yaxından əməkdaşlıq etmək niyyətini rəsmən bəyan edib. Bunu necə qiymətləndirirsiniz? Bu əməkdaşlıq bizim digər Avropa qurumları ilə münasibətlərimizə necə təsir edə bilər?**

- Mən bilirəm ki, ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə yaxından əməkdaşlıq etmək istəyi bəzi dairələrdə birmənalı qarşılanmır. Lakin bir məsələni dəqiq bilməliyik ki, Azərbaycan hakimiyyəti milli maraqlarımıza tam cavab verməyən hər hansı bir quruma heç vaxt üzv olmayıb və bundan sonra da olmayacaq. Bu baxımdan ŞƏT-ə iqtisadi maraqlarımızın təmin olunması üçün əlavə bir imkan kimi baxmaq lazımdır.

Azərbaycanın ŞƏT-lə əməkdaşlığını daha da inkişaf etdirmək və yeni səviyyəyə qaldırmaq niyyətində olduğunu bəyan etməsini çox müsbət qiymətləndirirəm. Ölkəmizin hazırkı iqtisadi prioritetləri və həyata keçirdiyi infrastruktur və nəqliyyat layihələri baxımından bu təşkilatla əməkdaşlığın dərinləşdirilməsini çox vacib hesab edirəm. Avrasiya qitəsinin 3/5-ünə bərabər olan, 2 milyarddan yuxarı əhaliyə sahib olan ŞƏT üzvləri ilə, xüsusilə Çin kimi iqtisadi nəhənglə bizim ortaq iqtisadi maraqlarımız var. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın müəllifi olduğu “dəmir ipək yolu” adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işləməsi, hər iki istiqamətdə yük daşımalarının həcminin arzu olunan səviyyəyə çatması, ölkəmizi “habların habı” statusuna qaldıran şərq-qərb, şimal-cənub marşrutunun özünü doğrultmasında ŞƏT-ə tam və müşahidəçi hüquqla üzv olan ölkələrin müstəsna rolu var. Başqa sözlə desək, Azərbaycanın təşəbbüs göstərdiyi Qədim İpək Yolunun bərpası məhz bu ölkələrdən daha çox asılıdır. Ona görə də Azərbaycanın ŞƏT-lə yaxından əməkdaşlıq etməsinə və müşahidəçi ölkə statusu alması üçün müraciətinə uğurlu xarici siyasətimizin davamı kimi baxıram və təqdir edirəm.

Azərbaycanın ŞƏT-lə əməkdaşlığının Avropa İttifaqı və ya Qərblə münasibətlərinə mümkün təsirinə gəlincə, onu deyə bilərəm ki, ŞƏT-lə əməkdaşlığımız Avropa ilə əlaqələrimizə heç bir mənfi təsir göstərməyəcək, tam əksinə bizim bu əməkdaşlığımızdan Avropa da faydalanacaqdır.

**- Azay müəllim, ayrı-ayrılıqda müxtəlif beynəlxalq təşkilatlara üzv olan türkdilli dövlətlərin öz aralarında olan birliyi necə qiymətləndirirsiniz? Hazırkı durum sizi qane edirmi?**

- Bu gün dünyada dövlətlərarası münasibətlərdə yeni keyfiyyət dəyişiklikləri baş verir. Bir çox hallarda bu müsbət istiqamətdə getmir, yeni qruplaşma, koalisiya meyilləri yaranır. Belə bir şəraitdə eyni milli köklərə malik, dil, din bağlılığı olan türkdilli ölkələrin birliyinə çox ehtiyac duyulur. Dünyada 6 türk dilində danışan müstəqil və dünya birliyi tərəfindən tanınan dövlət var. Biz dost və qardaş ölkələrik. Ona görə də türkdilli ölkələr bir-birinə daha yaxın olmalıdır. Bu reallığı zaman bizə diqtə edir. Azərbaycan-Türkiyə münasibətləri kontekstində bu reallığı və birlik nümunəsini daha aydın şəkildə görmək mümkündür. Bu gün türkdilli ölkələri özündə birləşdirən təşkilatlara Türkmənistanın və Özbəkistanın da qoşulması bizim gücümüzü və birliyimizi çox artırardı.

Mən tez-tez Orta Asiya respublikalarına səfər edirəm və görürəm ki, onlar da inteqrasiyada çox maraqlıdır. 2 həftə öncə Özbəkistana səfər etmişdim, parlamentdə bir sıra görüşlər keçirdim. Eləcə də TÜRKPA ilə bağlı müzakirələr apardıq. Özbəklər də yaxşı bilirlər ki, türk dövlətlərinin inteqrasiyasına çox böyük ehtiyac var. Sevindirici haldır ki, Qırğızıstanda keçirilən Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə Özbəkistanın Prezidenti də iştirak etdi. Bu, çox gözəl hadisədir və Özbəkistanın Türk birliyinə qoşulması üçün yaxşı siqnaldır. Ümid edirəm ki, yaxın vaxtlarda Özbəkistan və Türkmənistan da həm dövlət başçıları, həm də parlament formatında olan Türkdilli ölkələrin birliyinə qoşulacaqdır.

Əlbəttə ki, türkdilli ölkələr arasında ciddi ittifaq yaratmaq həyati əhəmiyyətə malikdir. Bu ölkələr hələ ki, daha çox mənəvi-mədəni parametrlərlə əməkdaşlıq edir. Amma gələcəkdə bu birlik iqtisadi, hərbi-siyasi bloka çevrilə bilər. Çünki həm enerji ehtiyatları, həm hərbi güc baxımından və digər resurslar baxımından türk coğrafiyasının böyük potensialı var. Bu coğrafiyanın birləşməsinə əngəl olan qüvvələr də var və biz onlara imkan verməməliyik ki, bizim qardaşlığımızı, dostluğumuzu və birliyimizi pozsunlar. Bu istiqamətdə media və vətəndaş cəmiyyəti də daim aktivlik nümayiş etdirməli və bizim birliyimizi təbliğ etməlidir.

**- Azay müəllim, son sualımız Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Bu məsələyə beynəlxalq təşkilatların mövqeyi haqqında fikirlərinizi bilmək istərdik. Siz ATƏT Parlament Assambleyasının vitse-prezidentisiniz və bu qurumun problemin həllinə yanaşmasını necə dəyərləndirirsiniz?**

- Təəssüflər olsun ki, münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatlar özlərinin qəbul etdiyi prinsiplərə və normalara əməl və hörmət etmirlər. Helsinki prinsipləri əsasında yaranan ATƏT bu prinsiplərin bərqərar olunmasını hələ də təmin edə bilmir. Biz ATƏT Parlament Assambleyasında bu məsələni dəfələrlə qaldırmışıq. ATƏT-in bu məsələdə mövqeyi və yanaşması Azərbaycanı qane etmir və edə bilməz. Çünki ATƏT işğalçı ölkə olan Ermənistanla işğala məruz qalan Azərbaycan arasında bərabərlik işarəsi qoyur, işğalçını öz adı ilə çağırmır, beynəlxalq hüququ heçə sayan ölkəyə qarşı hər hansı bir təsirli tədbir görmür. Cənab Prezident İlham Əliyev sentyabrın 21-də Milli Məclisdə parlamentin 100 illiyinə həsr olunmuş təntənəli iclasda çıxışı zamanı bu barədə çox açıq və qəti fikrini bir daha ifadə edərək bildirdi ki, beynəlxalq təşkilatlar Azərbaycana, münaqişənin həllinə münasibətdə ikili standartlara və haqsızlığa yol verirlər, işğalçı Ermənistana qarşı hər hansı bir sanksiya tətbiq etmirlər.

Bu yaxınlarda Prezident İlham Əliyev ATƏT-in baş katibi Tomas Qrimenqer ilə görüşündə də Azərbaycanın mövqeyini bir daha vurğuladı ki, ATƏT Ermənistanın qeyri-konstruktiv mövqeyinə açıq şəkildə münasibət bildirməlidir. Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqların formatını dəyişmək və separatçıları danışıqlar masasına gətirmək istəyi ATƏT-in Minks qrupunun həmsədr ölkələri tərəfindən birmənalı şəkildə pislənilməlidir. Bir sözlə, ATƏT-in özünün yaratdığı danışıqlar formatını kiminsə dəyişmək istəməsi yolverilməzdir. ATƏT bu məsələyə sərt mövqe bildirməyincə, Paşinyan kimi adamlar avantürist mövqeyini davam etdirəcək və öz daxili auditoriyasına və hakimiyyətinin qorunmasına hesablanmış belə sərsəm bəyanatlardan əl çəkməyəcək. Ona görə də, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin hazırkı mövqeyi bizi qane etmir, münaqişənin həlli ilə bağlı yeganə mandata sahib olan ATƏT mövcud vəziyyətə adekvat yanaşmır və bu, bizi ciddi narahat edir. Biz öz narahatlığımızı ən yüksək səviyyədə bildirmişik.

O ki qaldı ATƏT PA-nın münaqişənin həllinə yanaşmasına, onu deyə bilərəm ki, bu məsələdə Assambleyanın mövqeyi qənaətbəxşdir. Çünki 2015-ci ildə ATƏT PA mənim müəllifi olduğum “ATƏT Ərazisində Dövlətlərarası Münasibətlərdə Helsinki Prinsiplərinə Bağlılıq” adlı qətnaməni qəbul etməklə münaqişənin həlli ilə əlaqədar öz prinsipial və birmənalı mövqeyini ortaya qoydu. Belə ki, qətnamədə münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin dəyişilməzliyi prinsipləri əsasında həll edilməsinin vacibliyi vurğulanır, xalqların öz müqəddəratını təyin etmə hüququnun isə yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində mümkün olduğu qeyd edilir. İşğal olunmuş ərazilərdən qovulmuş vətəndaşlarımızın qeyd-şərtsiz və ləyaqətli bir şəkildə öz yurd-yuvalarına dönməsi üçün müvafiq şəraitin yaradılması tələb olunur. Bu baxımdan ATƏT PA-nın mövqeyi açıq və qəti şəkildə ifadə olunubdur və bu da bizi tam qane edir.

Əlbəttə, biz bununla kifayətlənmirik, ATƏT PA-nın bütün iclaslarında Dağlıq Qarabağ məsələsini qaldırırıq, haqlı mövqeyimizi diqqətə çatdırırıq, Ermənistanın işğalçı mahiyyətini ifşa edirik və bundan sonra da edəcəyik.

Onu da deyim ki, bu il oktyabrın 3-dən 6-na kimi Bişkekdə ATƏT PA-nın payız sessiyası keçiriləcək və sessiya çərçivəsində Azərbaycanın mövqeyini və münaqişə ətrafında yaranmış hazırkı vəziyyətlə əlaqədar narahatlığını bir daha Assambleyanın üzvlərinin diqqətinə çatdıracağıq. Son günlər İrəvanda və Bakıda səfərdə olan ATƏT PA-nın prezidenti Corc Seretelenin münaqişə ilə bağlı bəzi təklifləri də var və çox güman ki, o təklifləri də Bişkekdə müzakirə etmək imkanımız olacaq.

Sonda onu da demək istərdim ki, Azərbaycan gec-tez öz torpaqlarını işğaldan azad edəcək. Buna heç kimin şübhəsi olmasın. Çünki beynəlxalq hüquq və ədalət bizim tərəfimizdədir. Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq təşkilatlar tərəfindən tanınır və BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə müdafiə olunur. Azərbaycanın həyata keçirdiyi siyasət, ordumuzun güclənməsi, Ali Baş Komandanın Dağlıq Qarabağ məsələsində ardıcıl, güzəştsiz və prinsipial mövqeyi və ən nəhayət, bölgədə cərəyan edən proseslər və bir sıra geosiyasi amillər torpaqlarımızın işğaldan azad olunması üçün yeni imkanlar yaradır. İnanıram ki, biz bu imkanları doğru dəyərləndirməyi bacaracağıq.

# İkinci M.A.P. Bakı Beynəlxalq İncəsənət Festivalının proqramı olduqca zəngindir

Noyabrın 6-dan 11-dək “YARAT” Müasir İncəsənət Məkanı Bakının bir sıra sayılıb-seçilən məkanlarında ikinci M.A.P. Beynəlxalq Teatr Festivalını təqdim edəcək. Festivalla bağlı sentyabrın 24-də “YARAT”da mətbuat konfransı baş tutub.



AZƏRTAC xəbər verir ki, mətbuat konfransında “YARAT” Müasir İncəsənət Məkanının bədii direktoru Suad Qarayeva, “Bakcell” şirkətinin baş icraçı direktoru Nikolai Beckers, Mədəniyyət Nazirliyinin sektor müdiri Şaiq Səfərov və layihənin bədii rəhbəri Kamran Şahmərdan Beynəlxalq Teatr Festivalı ilə bağlı məlumat verərək, jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Bildirilib ki, ünsiyyət, təhsil, bilik və təcrübə mübadiləsi üçün platforma kimi götürülən M.A.P. festivalının adı, musiqi, incəsənət və perfomans terminlərinin abreviaturasıdır. Tamaşaçı auditoriyalarına müasir teatr formalarının geniş diapazonunu araşdırmağa kömək etmək məqsədilə, bu festival özündə müxtəlif teatr nümunələrini birləşdirir. Sözügedən tədbir öz əhatə dairəsini davamlı olaraq genişləndirir. Builki festival çərçivəsində Danimarka, Estoniya, Almaniya, İran, İtaliya, Yaponiya, İsveçrə, Rusiya və Birləşmiş Krallıqdan olan nüfuzlu teatr qurumlarının 16 tamaşası təqdim ediləcək.

Layihənin bədii rəhbəri Kamran Şahmərdanın sözlərinə görə, festivalın ikinci buraxılışı “sərhədsiz teatr” konsepsiyasını gerçəkləşdirən genişmiqyaslı proqramı təqdim edir. O, festivalın incəsənət vasitəsilə sərhədləri silən, mədəniyyətləri birləşdirən və insanları bir araya gətirdiyini vurğulayıb: **“Biz, müxtəlif teatr formaları arasında sərhədləri aradan götürməklə, küçə perfomansları, opera və balet, audiovizual səhnə quruluşları və klounada daxil olmaqla, müasir teatrda istifadə edilən geniş üslub palitrasını nümayiş etdirmək istəyirik. Müxtəlifliyi ön plana çəkməklə, biz auditoriyaya azad seçim imkanı verəcəyik”.**

Festivalla bağlı Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Bekers bunları qeyd edib: **“M.A.P. festivalı, Azərbaycanda incəsənətin inkişafına, habelə, bütün dünyada Azərbaycan incəsənətinin tanınmasına əhəmiyyətli töhfə verir. Bu, musiqi, incəsənət və perfomans ilə məşğul olan insanların öz əsərlərini beynəlxalq səviyyəli peşəkarlarla birgə nümayiş etdirməsi üçün unikal bir imkandır. Bakcell şirkəti, ilk ildən etibarən M.A.P festivalının baş sponsoru qismində çıxış edir. Milli telekommunikasiya operatoru olan Bakcell Azərbaycanda musiqi və incəsənətin inkişafına töhfə verən layihələrin dəstəklənməsi öhdəliyinə daim sadiq qalır. “YARAT”, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Kukla Teatrı, ÜNS Yaradıcılıq Səhnəsi, Bakı Konqres Mərkəzi də daxil olmaqla, Bakının ən nüfuzlu teatr məkanları ilə sıx əməkdaşlıq edir”.**

M.A.P. Festivalı Pedro Qomes-Eqanyanın noyabrın 9-dan fevralın 10-dək “YARAT” Müasir İncəsənət Mərkəzində keçiriləcək “Xəzər rəsədxanası” adlı sərgisi ilə üst-üstə düşür.

# AzerTelecom “Türkmentel 2018” sərgisində iştirak edəcək

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom cari ilin 10-12 oktyabr tarixlərində Türkmənistanın Aşqabad şəhərində keçiriləcək “Türkmentel 2018” 11-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisində təmsil olunacaq.

Şirkətin sərgidə stendlə iştirak məqsədi telekommunikasiya xidmətlərinin Türkmənistanda sərginin yerli və beynəlxalq iştirakçılarına təqdim edilməsi, onlar ilə fikir və təcrübə mübadiləsi, texnoloji yeniliklərlə tanış olmaq, eləcə də şirkətin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsidir.

Sayca 11-ci olan “Türkmentel 2018” Telekom və İT Sənayesi sərgisində bir çox yerli və xarici şirkətlərin telekommunikasiya və şəbəkə, informasiya texnologiyaları infrastrukturu və data mərkəz, telemetriya və ölçü vasitələri, rəqəmsal biznes həlləri, simsiz kommunikasiya, peşəkar audio və video yazma avadanlıqları və s. sahələrdə məhsulları təqdim olunacaq.

Qeyd edək ki, AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru “Bakcell” şirkətidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. Bu şəbəkə Naxçıvan Muxtar Respublikasını da əhatə edir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# BMT və qlobal çağırışlar: "intertarixi" zərurət kontekstində

***Xülasə:*** *Məqalədə regional və qlobal miqyaslı proseslər fonunda dünyada təhlükəsizliyin təmini mexanizminin təkmilləşdirilməsi imkanları təhlil edilir. Göstərilir ki, geosiyasi dinamikaya fərqli yanaşmalar mümkündür. Nümunə olaraq fransız tədqiqatçısı Bertran Badinin analizi göstərilir. Onun mövqeyinə görə, dünya "intertarix" mərhələsinə keçir ki, bu da "intersosiallıq"la xarakterizə olunur. Bu cür yanaşma bütövlükdə dünya nizamına, beynəlxalq münasibətlərin tənzimlənməsinə və bu prosesdə Birləşmiş Millətlər Təşkilatının roluna yeni müstəvidə baxmaq imkanı verir. Məqalədə bu problemin geosiyasi-nəzəri analizi aparılıb.*

Elmi tədqiqatçılar tarixin hazırkı mərhələsinin bir sıra özəlliklərini geniş araşdırırlar. Qlobal geosiyasi kontekstdə bu məsələ kifayət qədər aktualdır. O cümlədən yeni dünya nizamı, qlobal təhlükəsizlik, bəşəriyyətdə özünü göstərən dəyişikliklər kimi problemlərin qarşılıqlı əlaqədə təhlilinə böyük ehtiyac yaranıb. Həmin məsələ beynəlxalq təşkilatların müasir şərtlər daxilində səmərəli fəaliyyətinin təmini prizmasından xüsusi önəm kəsb edir. Belə ki, BMT kimi təşkilatın qlobal təhlükəsizliyi təmin etməkdə qarşılaşdığı çətinliklər müxtəlif suallar yaradır. Onlara cavab tapmaqla, faktiki olaraq, yeni dünya nizamının formalaşdırılmasının nəzəri əsasları işlənmiş olur. Təəssüf ki, hələlik bu problem öz həllini tapmayıb. Ancaq bir sıra maraqlı araşdırmalar və onlardan irəli gələn mühüm nəticələr vardır. Burada onlar üzərində bir qədər geniş dayanaq.

## GEOSİYASİ DİNAMİKA: BÖYÜK GÜCLƏRİN RƏQABƏTİ

Hazırda mütəxəssislər dünya siyasətinin bir qarışıqlıq içində olduğunu vurğulayırlar. Xüsusilə Yaxın Şərqdə baş verən hadisələrin meydana gətirdiyi problemlər qlobal geosiyasi mənzərəyə ciddi təsir göstərməkdədir. İndi aydın görünür ki, dünyanın geosiyasi nizamı böyük təhlükə qarşısındadır. Mövcud tənzimləmə və idarəetmə mexanizmləri əvvəlki dövrlərdə olduğu kimi səmərəli deyil. Böyük dövlətlər öz güclərindən ifrat dərəcədə istifadə etməyə, dünya əhəmiyyətli məsələləri öz maraqlarına uyğun həll etməyə çalışırlar.

Həmin aspektdə daha çox ABŞ, Avropanın böyük dövlətləri (Böyük Britaniya, Fransa və Almaniya) və Rusiya fəallıq göstərirlər. Hələlik Çinin mövqeyi təmkinlidir. Pekin beynəlxalq ziddiyyətlərə qarışmır, lakin passiv mövqe də tutmayıb. Çin əsas olaraq Asiya-Sakit okean hövzəsində aktiv geosiyasi-hərbi addımlar atır, ələlxüsus Cənubi Çin dənizi regionunda kifayət qədər fəallıq nümayiş etdirir.

ABŞ-la Rusiyanın geosiyasi savaşı indi Yaxın Şərqdə kulminasiya nöqtəsinə çatıb. Suriya və İraqda onlar həqiqi mənada rəqabətdədirlər. Amerika Prezidenti Donald Tramp Qüdslə bağlı tarixi səhvə yol verdikdən sonra Moskva Yaxın Şərqdə daha da aktivləşib. Vladimir Putin qısa müddətdə Misir, Suriya və Türkiyəyə səfər etdi. Ümumiyyətlə, Rusiya Prezidenti Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla səkkiz dəfə görüşüb! Kreml Suriyada siyasi-hərbi iştirakını yeni səviyyəyə yüksəltmək kursu götürüb. Bu, orada çoxlu əsgər saxlamaqla deyil, yerlərdəki müttəfiqləri vasitəsilə situasiyanı nəzarətdə saxlamağa dayanır. Təbii ki, həmin işi görmək üçün beynəlxalq hüququn prinsiplərinə uyğun qərarlar almaq lazımdır. O cümlədən BMT-nin uyğun mandatı olmalıdır. Əks halda, meydana yeni ziddiyyətlər çıxa bilər.

Əslində, proseslər elə bu istiqamətdə getməkdədir. Vaşinqton və Moskvanın Yaxın Şərqdəki qarşıdurmasının BMT sənədlərinə uyğun həllinin əlamətləri görünmür. Beynəlxalq münasibətlərə ciddi təsir edən digər məsələ Ukrayna ilə bağlıdır. Şərqi Ukraynada müharibə dayanmır. Orada Rusiya kifayət qədər fəaldır. Hərbi toqquşmalar getdikcə şiddətlənir. Bunlara Krım məsələsini də əlavə etsək, vəziyyətin nə dərəcədə ağır olduğunu təsəvvür edə bilərik.

Nəhayət, deyilənlərə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Cənubi Qafqazda yaranmış mürəkkəb geosiyasi situasiyanı, Gürcüstanın iki bölgəsinin müstəqilliklərini elan etmələrini, İran və Şimali Koreya problemlərini də əlavə etmək olar. Daha hansı çətinliklərin meydana çıxacağını isə proqnozlaşdırmaq mümkün deyildir. Çünki mövcud qlobal durum o dərəcədə həssas və dolaşıqdır ki, hansı məsələnin hansı yerdə necə təzahür edəcəyini öncədən demək çətindir. Bu, demoqrafik problem ola, sivilizasiyalararası ziddiyyət kimi meydana gələ, dinlərarası ixtilaf olaraq ortaya çıxa, məzhəb müharibəsi qismində özünü göstərə, iqlim problemi olaraq təzahür edə, yoxsulluğun daha geniş yayılması şəklində müşahidə oluna, yaxud kibermüharibə formasında bəşəriyyət qarşısına çıxa bilər.

## TƏNZİMLƏMƏ MEXANİZMLƏRİ: VESTFALDAN SONRA...

Bunların hər biri olduqca həssas mövzulardır və reallaşma ehtimalları az deyil. Təbii olaraq meydana sual çıxır: bəs beynəlxalq səviyyədə meydana gələn müxtəlif təbiətli problemləri həll etmək mexanizmləri mövcud deyilmi? Əlbəttə, mövcuddur. Onların reallaşma məkanı kimi Birləşmiş Millətlər Təşkilatı da vardır. Ancaq əsas problem ondadır ki, dünyanın özünün sosial, siyasi, geosiyasi, hərbi, iqtisadi, informasiya, ekoloji, texnoloji və sair xarakteristikaları köklü surətdə dəyişməkdədir. Bəşəriyyət artıq fərqli keyfiyyətə və dinamikaya keçib. BMT-nin rəhbər tutduğu beynəlxalq münasibətlər sistemi isə keçən əsrdə baş verən İkinci Dünya müharibəsindən dərhal sonra formalaşdırılıb. Onların hüquqi təməlini isə Vestfal müqaviləsinin prinsipləri təşkil edir. Məlumdur ki, beynəlxalq münasibətlərin Vestfal sistemi Otuzillik müharibədən sonra Avropada 1648-ci ildə imzalanmış Vestfal sülh müqaviləsinin hüquqi bazası əsasında hazırlanıb. Burada əsas prinsip dövlətlərin suverenliyinin toxunulmazlığı və güclülərin zəifləri işğal etməsindən çəkindirmək üçün müəyyən qaydaların işə salınmasından ibarətdir.

Vestfal sistemi birbaşa güc tətbiqindən güclüləri çəkindirirdi ki, bu da həmin müqaviləyə qədər dövlətlər arasında münasibətləri tənzimləmənin başlıca prinsipi kimi güc tətbiqini xeyli məhdudlaşdırırdı. Artıq bir güclü dövlət başqasına hücum edərsə, digər güclülərin birləşib ona qarşı çıxış etmək hüququ tanınırdı. **"Vestfal sistemi ilk dəfə olaraq dövlətin öz ərazisində və beynəlxalq işlərdə tam suverenliyini təsdiq edirdi, "milli dövlət" anlayışını sərhədləri daxilində, dəqiq funksiya və vəzifələri ilə legitimləşdirirdi".**

Lakin dalbadal baş verən iki dünya müharibəsi beynəlxalq münasibətlərin tənzimlənməsində ciddi çatışmazlıqların olduğunu üzə çıxardı. Bir sıra dövlətlər yenə də güc mövqeyindən çıxış edərək öz maraqlarını təmin etməyə, imperiya ambisiyalarını irəli sürməyə çalışırdılar. Yaranmış vəziyyətdən çıxmaq üçün Birinci Dünya müharibəsindən sonra Millətlər Liqası, İkinci Dünya müharibəsindən sonra isə Birləşmiş Millətlər Təşkilatı yaradıldı. Bu cür dəyişiklik bütövlükdə qlobal miqyasda baş verən geosiyasi transformasiyalarla birbaşa bağlı idi. Aydın görünürdü ki, güclü dövlətlərin güc tətbiqindən çəkindirilməsi kifayət qədər təsirli mexanizmlə tənzimlənmir və yeni, həm də daha səmərəli mexanizm işlənməlidir. Bu qisimdə suverenliklə yanaşı, "kollektiv təhlükəsizlik sistemi"nin işlənməsi zərurət kimi qarşıda dururdu. Doğrudur, Vestfal müqaviləsində kollektiv müdafiə haqqında müddəa vardı. Lakin iki dağıdıcı müharibənin baş verməsi bu anlayışa yeni məzmun verilməsinin vacibliyini nümayiş etdirirdi. Həmin səbəbdən BMT-də kollektiv təhlükəsizliyin təmin edilməsi prinsipi başlıca yerlərdən birini tutdu. BMT Nizamnaməsinin birinci - məqsədlər və prinsiplər fəslinin ilk bəndində deyilir: **"Beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək və bu məqsədlə dünyaya olan təhlükəni aradan qaldırmaq və ləğv etmək üçün effektiv kollektiv ölçülər götürmək, təcavüzü və ya sülhü pozan başqa pozuntuları məhv etmək, beynəlxalq mübahisələr və situasiyaları yoluna qoymaq üçün beynəlxalq hüquq və ədalətlilik prinsiplərinə uyğun olaraq dinc vasitələrdən istifadə etmək...".**

Bir müddət bu qaydalar beynəlxalq münasibətlərdə öz səmərəsini verdi. Lakin getdikcə aydın olurdu ki, bir sıra böyük dövlətlər artıq qoyulan çərçivələri aşırlar. Bu, əsas olaraq, ABŞ-SSRİ qarşıdurması fonunda baş verirdi. Vyetnam, Əfqanıstan, Latın Amerikasının bəzi ölkələri (məsələn, Panama, Boliviya və s.) ilə bağlı baş verənlər heç də hər bir BMT üzvünün suverenliyi və təhlükəsizliyinin təminat altında olmadığına işarə edirdi. Doğrudur, bunlarla yanaşı, Amerika və Sovet İttifaqı strateji kütləvi qırğın silahlarının məhdudlaşdırılması, yeni hücum silahlarından istifadənin qadağan edilməsi (məşhur "SNV-1" və "SNV-2" müqavilələrini xatırlayaq) istiqamətində konkret addımlar da atdılar. Lakin beynəlxalq miqyasda problemlərin sayı azalmır, hətta zaman-zaman daha kəskin formada yeniləri meydana gəlirdi.

Məsələn, iki supergüc olan ABŞ-la SSRİ arasında müharibə son anda əngəlləndi. Dünya nüvə reaktorlarının işə salınması ilə bağlı hər an böyük ekoloji fəlakətlərin baş verməsi qorxusu içərisində yaşayırdı. Tədricən isə ayrı-ayrı regionlarda çox təhlükəli münaqişələr alovlandı. Bu sırada İran inqilabını və ondan sonra beynəlxalq münasibətlərin gərginləşməsini də qeyd etmək olar.

Nəhayət, keçən əsrin 80-90-cı illəri dünya siyasətində dönüş nöqtəsi oldu. İki böyük geosiyasi, siyasi, hərbi və iqtisadi gücdən biri olan SSRİ və onunla bərabər sosialist düşərgəsi dağıldı. Həmin məqamda geosiyasi nəzəriyyələrdə də ciddi dəyişikliklər müşahidə olundu. Problemin maraqlı və əhəmiyyətli tərəflərindən biri ondan ibarətdir ki, aparılan tədqiqatlarda BMT-nin sürətlə dəyişən




geosiyasi situasiyada beynəlxalq münasibətlər sistemini tənzimləyən başlıca təşkilat olduğu birmənalı vurğulanırdı. Bir sıra araşdırmalarda isə BMT-nin strateji əhəmiyyətinin daha da artdığı ayrıca əsaslandırılırdı. Bu kontekstdə fransız alimi Bertran Badinin fikirləri xeyli dərəcədə maraqlıdır.

## TARİXİN SONU, YOXSA YENİ TARİX: DAHA BİR YANAŞMA

Beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert və Paris Siyasi Tədqiqatlar İnstitutunun professoru olan Bertran Badi yazır ki, keçən əsrin sonlarında tarixin sonu haqqında tezisin meydana gəlməsinin xüsusi səbəbi var idi. Bu, klassik anlamda müharibə təhlükəsinin ötüb keçməsi ilə əlaqədar idi. Bir çox tədqiqatçılar hesab edirdilər ki, **"beynəlxalq münasibətlərin sonunun çatdığının şahidləriyik".**

Tədqiqatçı belə bir mövqenin meydana gəlməsinin başlıca səbəbini kökü məşhur ingilis filosofu və siyasi mütəfəkkiri Tomas Hobbsun əsərlərinə gedib çıxan və beynəlxalq aləmin xarakterinə aid edilən realist paradiqmada görür. Bu paradiqmaya görə, siyasət dövlətlərarası qarşıdurma və silahlı münaqişə meydanıdır.

Müasir realizm paradiqmasının banisi, amerikalı siyasətşünas və nəzəriyyəçi alim Hans Morqentau vurğulayırdı ki, dövlətin hüdudlarından kənara tətbiq edilən güclə daxilə yönəlmiş güc arasında əhəmiyyətli fərq vardır. Bu əsasda çıxarılan nəticə belə idi ki, daxili siyasətin etika kimi beynəlxalq münasibətlərə heç bir aidiyyəti yoxdur. Realizm etikaya etibar etmir. Lakin o, özünün mənəvi köklərinə güclü bağlılığını da qoruyub saxlayır. Bu xəttin əsasını qoyanlardan biri və ümumiyyətlə, "güc nəzəriyyəsi"nin tərəfdarı kimi tanınan Reynhold Nibur protestant ideologiyasına dərin bağlılığı ilə tanınır. Onun fikrinə görə, ABŞ-ın gücü əxlaqi təsəvvürlər olmayanda müdaxilələrə təhrik etmirdi.

Realizmin siyasi kontekstdən asılılığını ifadə edən Bertran Badi vurğulayır ki, Yeni dövr tarixində realizmin dominantlığını laxlatmaq üçün üç cəhd göstərilib. Ancaq onların hamısı uğursuzluqla nəticələnib. Sonuncu cəhd İkinci Dünya müharibəsindən sonra edilib və əsasən BMT Nizamnaməsində öz hüquqi əksini tapıb. "Soyuq müharibə" illəri bunların əyani sübutudur. Ancaq "soyuq müharibə"nin başa çatması transmilli qarşılıqlı əlaqələrdə sosial aspekti nəzərə almamağın mümkünsüzlüyünü tam nümayiş etdirdi. İctimai ziddiyyətlərin beynəlxalq münasibətlərə ciddi təsiri əksər dövlətlər tərəfindən inkar edilsə də, reallıq bunun yanlış olduğunu göstərir.

O cümlədən həmin ziddiyyətlərdən qeyri-dövlət qüvvələri aktiv surətdə istifadə edirlər. Terror təşkilatları bu istiqamətdə daha fəaldır. Nəticədə, beynəlxalq münasibətlərin tənzimlənməsində bir hüquqi "disbalans" yaranır - mövcud mexanizmlər ya var gücü ilə işləmir, ya da yalnız kağız üzərində qalır. Onların reallaşma ehtimalı bir qayda olaraq böyük dövlətlərin maraqları ilə əlaqəli olur. Bu vəziyyəti ikili situasiya yaradır. Bir tərəfdən, qlobal miqyasda ziddiyyətlər kəskinləşir, digər tərəfdən isə BMT kimi təşkilat onları aradan qaldırmaqda acizlik göstərir. Bunlar isə əvvəlki dövrlərdə müşahidə edilməyən sosial-mədəni, siyasi, ictimai, ekoloji və s. proseslərin fonunda baş verir. Yəni bizim qlobal böhran kimi səciyyələndirdiyimiz proseslərin kökündə, əslində, bəşəriyyətdə baş verən sürətli sosial dəyişikliklər durur. Buna uyğun olaraq, beynəlxalq münasibətlərin yeni qaydalar üzrə tənzimlənməsi qaçılmazdır. Deməli, B.Badi faktiki olaraq, fərqli geosiyasi nəzəriyyənin yaradılmasına olan ehtiyacdan bəhs edir.

Müəllif həmin bağlılıqda yazır: **"Dünya səhnəsinə cəmiyyətlər dövlətlərin alətləri kimi yox, ancaq öz mədəniyyəti, dini, iqtisadiyyatı və qalıcı praktikaları ilə çıxırlar".** Bəşəriyyət liberallar üçün əlçatmaz olan bir səviyyəyə yüksələndə dövlət sadəcə "bazar dövləti" olmaqdan daha böyük məna kəsb edir. Məlumdur ki, "bazar dövləti" üçün əsas xarici funksiya məxsusi iqtisadi uğuru dinamik artırmaqdan ibarətdir.

Bu, ciddi yenilik və beynəlxalq münasibətlərin tənzimlənməsi kontekstində əhəmiyyətli bir müddəadır. Xüsusilə BMT üzərinə yeni vəzifələr qoya biləcək prosesdir. Bütövlükdə diplomatiyanın yeni metodlar axtarması zərurətinin meydana çıxması əlamətidir.

Əslində, bu iddia dünya səviyyəsində tamamilə fərqli geosiyasi reallığın formalaşmaqda olduğunu ifadə edir. Çünki cəmiyyətin qeyri-dövlət hissəsinin geosiyasi dinamikaya birbaşa təsir etməsi çox fərqli mənzərədir. Əsas problem həmin amilləri üzvi surətdə qlobal geosiyasətin dinamikasına daxil etmək və tənzimləmə prosesi (məsələn, kollektiv təhlükəsizlikdə) modelində səmərəli şəkildə nəzərə almaqdan ibarətdir.

Nəzəri aspektdə bu tendensiyanı B.Badi belə xarakterizə edir. O yazır: **"...intersosial tarixə çevrilən intermilli tarix formalaşır ki, burada ayrıca şəxsiyyətlər, ictimai birliklər və sosial dinamika aparıcı rol oynayır".** Problemin bu tərəfi BMT-nin müasir dünyada rolu kontekstində son dərəcə ciddi əhəmiyyət kəsb edir. Çünki qlobal geosiyasətə orqanik daxil olan yeni faktorların işlək mexanizm üzrə proseslərə qoşulması mükəmməl və çevik beynəlxalq qurum olmadan imkansızdır. Bunun səbəbi ondan ibarətdir ki, sosial xarakterli faktorları ayrı-ayrı dövlətlər fərqli qiymətləndirir və yanaşmalar da fərqli olur. Onların vahid meyar ətrafında birləşməsi üçün ümumi bir baxış bucağı və onu həyata keçirən beynəlxalq təşkilat gərəkdir. Məhz bu bağlılıqda B.Badinin aşağıdakı fikri maraqlıdır. Fransız mütəxəssis vurğulayır: **" ... yeni beynəlxalq münasibətlərə inklüziv baxışa keçmək zamanı gəlib ki, ... bu da yeni tarixi başlamaq üçün lazımdır".**

## "İNKLÜZİV BAXIŞ": BMT-DƏ İSLAHATLARIN ZƏRURİLİYİ

Bəs "inklüziv baxış" dedikdə, nə nəzərdə tutulur? İnklüzivlik hər hansı bir faktoru ümumi kontekstə real olaraq daxil etməklə əlaqəli termindir. Bunun əksi olan eksklüzivlik elementin ümumi mənzərədən kənarda qalması, xarici olması təsəvvürü ilə bağlıdır. Deməli, beynəlxalq münasibətlərə inklüziv baxış, yaxud yanaşma sosial, siyasi, mədəni, geosiyasi, hərbi, ekoloji, psixoloji və s. faktorları vahid bir kontekstdə, sistemdə, tamda real görə bilmək qabiliyyətidir və metodudur. Şübhə yoxdur ki, bu cür yanaşma yalnız çevik fəaliyyət mexanizminə malik, bütün dünya dövlətlərinin təmsil olunduğu beynəlxalq təşkilatda, yəni BMT-də konkret məzmun kəsb edə bilər. Bu yanaşma ancaq BMT çərçivəsində praktiki tətbiq imkanı əldə edə bilər.

Mütəxəssislər də BMT haqqında bu kontekstdə fikirlər ifadə edirlər. Məsələn, rusiyalı alim V.L.Oleandrov yazır ki, **"BMT ideologiyası ümumdünyəvidir ... Dünyanın bütün dövlətləri sülh şəraitində getməli olan ortaq inkişaf taleyinə sahib və ümumi beynəlxalq hüquq qaydaları ətrafında birləşmiş xalqların ailəsidir".** Bəli, B.Badinin ifadə etməyə çalışdığı geosiyasi proseslərə yeni yanaşmada da məhz "dünyanın ümumi beynəlxalq hüquq ətrafında birləşmiş xalqların ailəsi" təsəvvürü əsas təşkil edir. Bu iradənin ifadəçisi isə BMT ola bilər.

BMT XXI əsr üçün də dövlətlərarası münasibətlərdə dünya mədəniyyətinin ən yüksək nailiyyəti kimi qalmalıdır. "Bəşəriyyətin bütün xalqlarını və dövlətlərini birləşdirən ən səmərəli beynəlxalq münasibətlərin idarə edilməsi mexanizmlərinə malik" təşkilat olaraq BMT daha çevik, ədalətli, mükəmməl, zamanın yeni tələblərinə cavab verən, intersosial mahiyyətli fəaliyyət mexanizmlərini hazırlamalıdır. Konkret desək, bəşəriyyətin intermilli tarixi mərhələsinin beynəlxalq hüququ təmsil edən əsas subyekti BMT olmalıdır!

Araşdırmalar göstərir ki, əslində, BMT məhz yuxarıda vurğulanan kontekstdə bir sıra proqramlar həyata keçirməyə başlayıb. Bu, çox maraqlı faktdır. O, iki aspektdə əhəmiyyətlidir. Birincisi, böyük dövlətlərin ciddi-cəhdlərinə baxmayaraq, BMT bəşəriyyətin dinamikasına uyğun yeniləşməyə meylini davam etdirir. İkincisi, bu beynəlxalq təşkilata bədbinliklə yanaşan dövlətlər artıq mövqelərini dəyişməlidirlər. Çünki, real olaraq BMT onları təmsil edir və bütün üzv ölkələr bu məsələdə BMT-yə dəstək verməlidirlər. Azərbaycan onlar üçün həmin bağlılıqda örnək ola bilər.

Məlumdur ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini uzun illərdir ki, işğal altında saxlayır. BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Ermənistandan işğal etdiyi əraziləri tərk etməsini tələb edib. Lakin Ermənistan rəhbərliyi buna əməl etmir. BMT isə təsirli tədbir görmür. Buna baxmayaraq, Azərbaycan BMT ilə əməkdaşlığı fəal surətdə davam etdirir. Və bunu etməkdə tam haqlıdır. Yuxarıdakı analizdən də görünür ki, müasir tarixi mərhələdə dövlətlərarası münasibətləri yoluna qoymağın sivil yolu BMT-dir.

Azərbaycan nə qədər ikili standartlarla üzləşsə də, müəyyən dairələrin şantajı, yalanı, böhtanı və qarayaxma kampaniyaları ilə qarşılaşsa da, BMT-yə inamını sarsıtmır. Mübarizəsini və əməkdaşlığını davam etdirir və şübhə yoxdur ki, haqq tərəfdarı kimi qalib gələcək. Bu nümunə başqalarına da ibrət olmalıdır. Əgər ədalətsizliyə düçar olan hər bir ölkə Azərbaycan qədər fəal və inadla beynəlxalq təşkilatlarda özünü göstərsə, nəhayətində ikili standartlar da siyasət səhnəsindən düşər. Müasir dövrün çağırışları bu tendensiyanın gücləndəcəyini təsdiq etməkdədir. B.Badinin araşdırmalarının da bu istiqamətdə ümidverici notları var.

Bütün bunlar bir daha yuxarıda vurğulanan sosial mahiyyətli məsələlərin BMT fəaliyyətində nə dərəcədə nəzərə alındığını təhlil etmək zərurətini ortaya qoyur. Faktlara baxaq. Rusiyalı alim Aleksandr Kuteynikov yazır ki, BMT-də üç nisbi müstəqil münasibətlər səviyyəsi mövcuddur - siyasi-hüquqi (üzv dövlətlər), institusional (orqanlar və müstəqil, yaxud avtonom təşkilatlar) və sosial səviyyə (təşkilatın işinə cəlb olunmuş insanlar qrupu).

Buradan görünür ki, BMT-nin hazırkı strukturunda sosial, hüquqi və siyasi aspektləri bir araya gətirə bilən münasibətlər iyerarxiyası mövcuddur. Doğrudur, sosial səviyyədə söhbət müəyyən proqramları yerinə yetirən insanlar qrupundan gedir. Ancaq bu strukturu genişləndirməyə və təkmilləşdirməyə nə mane olur? Həmin səviyyəyə B.Badinin vurğuladığı kontekstdə intermilli və intersosial faktorları əlavə etmək, konkret desək, mövcud struktura üzvi şəkildə sintez etmək olar ki, bütövlükdə təşkilat baş verən hadisələrə daha çevik və səmərəli reaksiya verə bilsin.

Burada mütəxəssislərin vurğuladığı bir məqamı da xatırlatmağa dəyər. Biz, BMT-də sosial yönümlü məsələlərə daha çox diqqət yetirilməsinin bir sindromu da neytrallaşdıra biləcəyini nəzərdə tuturuq. Məsələ ondan ibarətdir ki, uzun illərdir BMT TŞ-nin beş daimi üzvü əhəmiyyətli məqamlarda ortaq qərara gələ bilmirlər. Bununla bağlı Andrey Kortunovun bir qeydi maraqlıdır. Rusiyalı mütəxəssis yazır: **"BMT TŞ-nin rolu onun daimi üzvlərinin ən vacib məsələlər üzrə razılaşa bilməməyin xroniki qabiliyyətsizliyi şəraitində çətin ki, artsın".** Görünür, bu kimi qüsurların nəticəsidir ki, beynəlxalq sistemin sabitləşdirici elementi olaraq BMT üzərinə düşən vəzifəni yalnız qismən yerinə yetirə bilir.

Bununla yanaşı, A.Kuteynikovun da qeyd etdiyi kimi, "BMT-nin özü dəyişikliklər aləti olmağa xidmət etməkdədir". Dövlətlərarası əməkdaşlıq layihəsi ilə sıx bağlı olduğundan, BMT istər-istəməz qloballaşma və dövlətçiliyin "yayğınlaşması" ilə əlaqəli proseslərə cəlb edilir. Bu keyfiyyətdə o, "mühüm sosial və siyasi meqatrendlərin katalizatoru" rolunu oynamaqdadır.

Yeni yaranmış mənzərə BMT-nin həyata keçirdiyi son layihələr prizmasından daha aydın görünməkdədir. Mütəxəssislər onları 30 kompleks mövzu kimi təsnifləşdirirlər. Onların hamısı təşkilatın qloballaşma ilə bağlı gündəminə aiddir. Həmin mövzular üzrə BMT-nin aşağıdakı prioritetləri müəyyənləşdirilib:

1) dayanıqlı inkişafa, mütərəqqi iqtisadi yüksəlişə dəstək, beynəlxalq sülh və təhlükəsizliyin təmini; 2) Afrikanın inkişafı; 3) insan haqlarının təşviqi; 4) humanitar yardım göstərmək səylərinin səmərəli şəkildə əlaqələndirilməsi; 5) beynəlxalq hüququn və ədalət mühakiməsinin möhkəmləndirilməsi; 6) tərksilah; 7) narkotiklər üzərində nəzarət; 8) cinayətkarlığın qarşısının alınması və beynəlxalq terrorun bütün təzahür formaları ilə mübarizə.

Bunlardan mütəxəssislər belə bir nəticə çıxarırlar ki, "təşkilatda praktiki olaraq bütün beynəlxalq proseslərlə əlaqəli olan planetar miqyaslı dəyişikliklərin baş verməsi konseptual ümumiləşdirmə və izah tələb edir.

Beləliklə, BMT müasir beynəlxalq situasiyaya çevik reaksiya kimi iki səviyyədə dəyişikliklərə gedir. Təşkilat, birincisi, mühüm sosial və siyasi meqatrendləri stimullaşdırır, motivasiya edir, onlara təkan verir, ikincisi, konkret proqramları ilə bu nəzəri yeniləşmələri tətbiq etməyə çalışır. Sonuncu aspektdə təşkilatın yeni layihələrindən birinin üzərində dayanmaq gərəkdir.

2017-ci il sentyabrın 25-də BMT-yə üzv dövlətlər 2030-cu ilə qədər dayanıqlı inkişaf konsepsiyasının 17 əsas məqsədini müəyyənləşdiriblər. Həmin məqsədlərə 15 il müddətində nail olunmalıdır. Onlardan birincisi yoxsulluğun ləğvidir. Bu məsələ hazırda dünya üzrə ən aktual sosial problem hesab edilir. İkinci sırada aclığın aradan qaldırılması dayanır. Aclıqdan dünyanın müxtəlif regionlarında milyonlarla insan əziyyət çəkir, onların sağlamlığına və sosial mühitə inteqrasiyasına neqativ təsir göstərir. Təsadüfi deyil ki, üçüncü sırada yaxşı sağlamlıq və rifah dayanır. Bu iki faktor birbaşa insanın həyat səviyyəsi ilə əlaqəlidir. Rifah olmayan cəmiyyətdə dayanıqlı inkişafdan söhbət gedə bilməz. Dördüncü məqsəd keyfiyyətli təhsildir. Bu məsələ müasir cəmiyyətlərin inkişafı üçün aparıcı rol oynayır. Eyni zamanda, keyfiyyətli təhsil olmadıqda, gənclərin müxtəlif radikal ideoloji qrupların təsiri altına düşmələri, cinayətkarlığa qurşanmaları üçün münbit şərait yaranır. Beşinci məqsəd gender bərabərliyinin təmin olunmasıdır ki, bu da cəmiyyətin sosial quruluşunun müasir tələblər səviyyəsində formalaşdırılması zərurətini ifadə edir. Qadınların diskriminasiyası aradan qaldırılmalıdır. Cinslərin hüquqları bərabər olmalıdır. Altıncı bənd təmiz su və sanitariyanı, yeddinci ucuz və təmiz enerjini ifadə edir.

Sonrakı məqsədlər layiqli iş və iqtisadi artımla bağlıdır, doqquzuncu industrializasiya, innovasiya və infrastrukturun inkişafını ehtiva edir. Sonrakılar qeyri-bərabərliyin azaldılması, dayanıqlı şəhərlər və yaşayış məntəqələri, məsuliyyətli istehlak və istehsal, iqlim dəyişməsi ilə mübarizə, dəniz ekologiyasının qorunub saxlanması, quru ekologiyasının qorunub saxlanması, sülh, ədalət mühakiməsi və səmərəli institutlar, nəhayət, dayanıqlı inkişaf naminə tərəfdaşlıqdan ibarətdir.

Göründüyü kimi, bütün məqsədlər sosial, mədəni, hüquqi, ekoloji və iqtisadi xarakterlidir. Belə çıxır ki, BMT bu strateji layihəsi ilə insan amilinə daha çox diqqət yetirməyə başlayır. Başqa sözlə, BMT intersosial mühitdə fəaliyyətə hazırlaşır. Onun qarşısında duran başlıca maneə müasir mühitin olduqca mürəkkəb struktura malik olmasıdır. Həmin aspektdə Reynhold Niburun bir fikrini vurğulamaq yerinə düşərdi. O qeyd edir ki, beynəlxalq münasibətlər də daxil olmaqla, sosial mühit "rasional" eksperimentlərə uyğun gəlmir, çünki o, "çox mürəkkəbdir". Bu məqam yuxarıda sadalanan məqsədlər çərçivəsində də aydın görünür. Vəziyyəti mürəkkəbləşdirən başqa amil isə təhlükəsizliyin təminindən ibarətdir. Həmin kontekstdə ziddiyyətləri kəskinləşdirən amillər dünya nizamının dinamikasının özəlliyi ilə stimullaşdırılır. Burada dünya nizamı sistemi üçün qeyri-müəyyənlik və dayanıqsızlıq kimi iki amilin təsiri nəticəsində üçüncünün - risk amilinin artmasını vurğulamaq lazım gəlir. Çünki bu halda dünyanın supergücləri arasında təhlükəsizlik məsələsində anlaşılmazlıqlar artır.

## NƏTİCƏ

Belə çıxır ki, yaranmış vəziyyətdə BMT-nin səmərəli fəaliyyəti üçün təhlükəsizliyi təmin edən və intersosiallığı nəzərə alan mexanizmlər işlənməlidir. Bu isə yalnız BMT-də uyğun struktur və funksional islahatların aparılması halında mümkündür. Əslində, bu, bir zərurət kimi qəbul edilməlidir. Elmi araşdırmalar göstərir ki, yeni dünya nizamının formalaşmasında beynəlxalq təşkilatlar ciddi rol oynamalıdırlar. Ölkələr arasında qarşılıqlı təsirlər o dərəcədə intensivləşib ki, böyük güclərin qüvvələr nisbəti ilə qlobal geosiyasi düzən arasında sıx əlaqə yaranıb.

Deməli, bütün bu geosiyasi "rəngarəngliyi" bir tonda birləşdirən, idarə edən, tənzimləyən, vahid orqanizmdə sintezləşdirən beynəlxalq qurum, yəni BMT mövcud olmalıdır. Bu təşkilat sürətlə dəyişən dünyanın mövcudluğunu və bütövlüyünü saxlamaqda prinsipial müsbət rol oynaya bilər. Onun inkişaf yolu isə islahatlardan keçir. Yuxarıda vurğuladığımız məqamların işığında sonuncu tezis inandırıcı təsir bağışlayır.

**Leyla Məmmədəliyeva,**
**Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun doktorantı**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır
KİVDF
www.kivdf.gov.az

# Ölkəmizdə pambıqçılığın inkişafı ilə əlaqədar davamlı tədbirlər həyata keçirilir

*Pambığın hər tonunun alış qiymətinin 50 manat artırılması dövlət başçısının fermerlərə göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür*



Ölkəmizdə aqrar sektorun inkişafı istiqamətində aparılan uğurlu siyasət öz bəhrəsini verməkdədir. Belə ki, kənd təsərrüfatında innovativ metodların, qabaqcıl təcrübənin tətbiqi, ixracyönümlü məhsul istehsalının təşviq edilməsi, azad sahibkarlığın hərtərəfli şəkildə dəstəklənməsi, fermerlərə subsidiyalar, güzəştli kreditlər verilməsi, texnika və gübrələrlə təminatın gücləndirilməsi, bölgələrdə dövlət vəsaiti hesabına müasir infrastrukturun yaradılması, həmçinin regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları çərçivəsində məqsədyönlü tədbirlərin həyata keçirilməsi son nəticədə respublikamızda aqrar sektorun keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxmasını təmin edib. Respublikamızdan ənənəvi bazarlara və Körfəz ölkələrinə yüksək rəqabət qabiliyyətinə malik meyvə-tərəvəz ixracının artması, eləcə də ölkədə bir sıra istiqamətlər üzrə ərzaq məhsullarına olan tələbatın sırf daxili istehsal hesabına təmin edilməsi bunu bir daha təsdiqləyir.

Son illərdə bütün ölkə üzrə aqrar sektorun inkişafından söhbət açarkən pambıqçılıq sahəsində əldə olunan uğurları da xüsusi qeyd edə bilərik. Azərbaycanın bir sıra bölgələri üçün ənənəvi təsərrüfatçılıq sahələrindən olan pambıqçılıqda torpaq mülkiyyətçilərinin gəlir imkanları kifayət qədər böyükdür. Bu məhsulun satışı ilə bağlı hər hansı bir problem yoxdur. Dünya bazarlarında pambıq birjalarda satılır və istehsalçı ölkələrə böyük həcmlərdə valyuta qazandırır. Azərbaycan da Prezident İlham Əliyevin təşəbbüsü ilə regionlarda pambıqçılıq sahəsində ənənələri dirçəltməklə yeni iqtisadi şəraitdə ölkədən qeyri-neft məhsullarının ixracının genişləndirilməsini hədəfləyib.

Məlum olduğu kimi, artıq sentyabrın əvvəlindən bölgələrdə kütləvi surətdə pambıq yığımına başlanıb. Qeyd edək ki, pambığın alış qiymətinin artırılması fermerlərdə bu sahəyə marağı daha da artırıb. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyəsinə əsasən pambıq istehsalı ilə məşğul olan fermerlərin məhsul istehsalına həvəsləndirilməsi, onların maddi rifahının daha da yaxşılaşdırılması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinin, İqtisadiyyat Nazirliyinin məsul işçilərinin iştirakı ilə pambıq istehsalı və emalı ilə məşğul olan şirkət rəhbərləri ilə görüş keçirilib. Görüşdə cari ildə görülən işlər, pambıq yığımının gedişi, tədarükü və emalı vəziyyəti, eləcə də qarşıya qoyulan hədəflərə nail olunması üçün həyata keçirilməsi vacib olan məsələlər müzakirə edilib.

Pambıq əkən fermerlərin məhsul istehsalına, yığımına həvəsləndirilməsi və onların maddi rifahının daha da yüksəldilməsi məqsədilə pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2018-ci ilin məhsulu üçün 1-ci növün 600-dən 650 manata, 2-ci növün 580-dən 630 manata, 3-cü növün 540-dan 590 manata, 4-cü növün 500-dən 550 manatadək artırılması barədə razılıq əldə edilib.

**"Pambığın hər tonunun alış qiymətinin 50 manat artırılması nəticəsində fermerlər əlavə olaraq, ümumilikdə, 12-13 milyon manat qazanc əldə edəcəklər. Bu, dövlətimizin başçısının fermerlərə göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür".** Bunu məsələyə münasibət bildirən Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Anar Hüseynov deyib. Anar Hüseynov ölkə üzrə 260 min ton məhsul yığımının nəzərdə tutulduğunu deyib. Bildirib ki, pambıq əkini daha çox Sabirabad, Saatlı, Biləsuvar, Ağcabədi, Bərdə və Beyləqan rayonlarında həyata keçirilib. Respublika üzrə pambıq əkininin 60 faizi məhz bu rayonların payına düşür.

2015-2018-ci illərdə respublikaya "Aqrolizinq" ASC-nin xətti ilə 353 ədəd pambıqyığan maşının gətirildiyini vurğulayan şöbə müdiri yaxın günlərdə daha 50 ədəd kombaynın da gətirilməsinin nəzərdə tutulduğunu deyib: **"Hazırda bir neçə rayonda əllə pambıq yığımına başlanılıb. Bu ayın sonlarında isə yığım prosesinə kombaynlar da qoşulacaq. Mövcud olan 353 kombayndan 221-i artıq pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlərə lizinqə verilib. Onlardan 98-i "Aqrolizinq" ASC-nin regional servislərində xidmət göstərəcək".**

Pambığın hər tonu üçün alış qiymətinin 50 manat artırılması Biləsuvarda da pambıqçılıqla məşğul olan fermerlər arasında yüksək əhval-ruhiyyə yaradıb, onların bu sahəyə marağını daha da artırıb. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, bu il Biləsuvarda 12 min hektarda pambıq əkilib. Əkinçilər bitkiyə aqrotexniki qaydada qulluq göstərdiyindən sahələrdə bol məhsul yetişib. Bir neçə gündür ki, pambıqçılar yetişdirdikləri məhsulun tədarükünə başlayıblar. Qısa müddətdə 126 ton 176 kiloqram məhsul toplanaraq tədarük məntəqələrinə göndərilib. Təcrübəli pambıqçı, birinci dərəcəli əmək ordenli Fazil Musayev uzun illərdir bu sahədə çalışır və yüksək məhsuldarlığa nail olur. O deyib: **"Ötən il becərdiyim 16 hektar pambıq sahəsindən 81 ton məhsul götürərək, hər hektarın məhsuldarlığını 51 sentnerə çatdırmışam. Satdığım məhsulun müqabilində 5 min manata yaxın qazanc götürmüşəm. Bu il isə 48 hektarda əkin aparmışam. Bitkiyə nümunəvi qulluq göstərildiyindən məhsul boldur. Məhsul yığımını maşınla aparacağam. Ona görə hələlik yığıma başlamamışam. Sahədə 90-95 faiz açılış olduqdan sonra məhsul toplanacaq. Bu il hər hektardan 50-55 sentner məhsul götürməyi planlaşdırıram".**

**"Məhsulun hər tonunun alış qiymətinin 50 manat artırılması digər istehsalçılar kimi məni də çox sevindirir. Dövlət tərəfindən biz pambıqçılara göstərilən hərtərəfli qayğıdan yararlanaraq, növbəti illərdə əkin sahəsini daha da genişləndirəcəyəm",** - deyə fermer bildirib.

Pambığın alış qiymətinin hər tonuna görə 50 manat artırılması fermerləri daha çox məhsul istehsal etməyə həvəsləndirib. Uzun illərdir kənd təsərrüfatı sahəsində çalışan Ağdam rayon Kolqışlaq kənd sakini İslam Qasımov KİV-ə açıqlamasında pambıqçılığın gəlirli sahə olduğunu bildirib. O deyib: **"Pambıq kənd təsərrüfatının elə sahəsidir ki, həm dövlət üçün əhəmiyyətlidir, həm də fermerlər üçün xeyirlidir. Düzgün aqrotexniki qulluq göstərildikdə yaxşı gəlir götürmək mümkündür. Digər tərəfdən pambığın becərilməsi dövründə bütün xərclərin müqavilə bağlanmış şirkət tərəfindən ödənilməsi, fermerlərin texnika, toxum, gübrə və dərmanlarla təmin edilməsi çox əlverişlidir. Mən də bu imkandan istifadə edərək, ötən il 4 hektarda pambıq becərib, hər hektardan orta hesabla 47 sentner məhsul götürdüm. 5400 manat qazanc əldə etdim. Bu il də 4 hektarda pambıq becərmişik. Düzgün aqrotexniki qulluq sayəsində tarlalarda bol məhsul yetişib. Hər hektardan 45 sentnerdən yuxarı məhsul gözləyirik. Pambığın alış qiymətinin 50 manat qaldırılması mənə min manata yaxın əlavə qazanc gətirəcək".**

Pambığın alış qiymətinin artırılmasını dövlət başçısının fermerlərə göstərdiyi diqqət və qayğının növbəti təzahürü kimi qiymətləndirən İslam Qasımov növbəti ildə əkin sahəsini daha da genişləndirəcəyini və daha çox məhsul istehsal etməyə çalışacağını bildirib.

Xatırladaq ki, ölkəmizdə bu il 136 min hektarda becərilmiş pambığın yığımına başlanılıb. Tarlaların 70 faizi maşınlar vasitəsilə yığılacaq. Bütün rayonlarda pambıqyığan kombaynlar, həmçinin traktor və qoşqular hazır vəziyyətə gətirilib, ehtiyat hissələri, yuyucu və yağlayıcı maddələrlə təmin olunub. Kombaynları idarə etmək üçün mexanizatorlara təlimlər keçilərək sertifikatlar verilib. "Aqrolizinq" ASC-nin şöbə müdiri İsrafil İsmayılov qeyd edib ki, pambığı daşımaq üçün "Aqrolizinq" ASC-də kifayət qədər traktor və qoşqu hazırlanıb. Gəncə Avtomobil Zavodu tərəfindən yığılmış 400-ə yaxın traktor, həmçinin 700-ə yaxın qoşqu "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsinə verilib.

Ölkədə kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi üçün kifayət qədər maddi-texniki baza yaradıldığını deyən İsrafil İsmayılov bildirib ki, "Aqrolizinq" ASC fəaliyyətdə olduğu 14 il ərzində ölkəyə 43 mindən çox kənd təsərrüfatı texnikası gətirilərək, lizinq yolu ilə vətəndaşlara, təşkilatlara verilib. Ötən il isə ölkəyə 12 mindən çox kənd təsərrüfatı texnikası gətirilib ki, bunun da 65 faizə qədəri pambıqçılıqda istifadə olunan texnikalardır. **"Bu il dövlət büdcəsi tərəfindən ayrılmış 160 milyon manat vəsaitlə ölkəyə 6 mindən çox kənd təsərrüfatı texnikası gətirilib",** - deyə şöbə müdiri əlavə edib.

Yeri gəlmişkən, qeyd edək ki, Beyləqanda pambıq yığımı mövsümünün başlanması ilə əlaqədar bu günlərdə keçirilən müşavirədə görüləcək işlər, məhsulun vaxtında və itkisiz yığılması üçün qarşıda duran vəzifələr müzakirə olunub. Rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, pambıq istehsalçılarının, fermerlərin, kənd inzibati ərazi nümayəndələri və bələdiyyə sədrlərinin iştirak etdiyi toplantıda rayonda pambıq əkinlərinin ildən-ilə genişləndirildiyi bildirilib. Qeyd olunub ki, əgər rayon ərazisində 2016-cı ildə 4035 hektarda pambıq əkilmişdisə, 2017-ci ildə bu rəqəm 8550 hektara, 2018-ci ildə isə 9560 hektara çatdırılıb. Bol məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib. Nəticədə yaxşı çıxış alınıb, barlı kollar yetişib. Məhsulun maşınla yığılması nəzərdə tutulan sahələrdə pambığın yarpaqlarının kimyəvi yolla tökdürülməsi üçün defoliasiya işləri görülüb. Artıq rayonda pambıq yığımına başlanılıb. Cari ildə tarlalardan 20 min ton pambıq yığılması proqnozlaşdırılır.

(davamı növbəti sayımızda)

**Nardar BAYRAMLI**

# "Bakcell"in baş icraçı direktoru startap və telekommunikasiya sahəsinin rəqəmsallaşması barədə danışıb




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell telekommunikasiya sahəsinin yerli və beynəlxalq səviyyədə inkişafına öz töhfəsini vermək məqsədilə dünyanın ən nüfuzlu tədbirlərində iştirak edir.

"Bakcell"in baş icraçı direktoru Nikolai Beckers IBM, "Wipro", "Ericsson", "Verizon", "Etisalat", "Batelco Group", "Turk Telecom" və digər nüfuzlu şirkətlərin rəhbərləri ilə birgə "Telecoms World Middle East 2018" beynəlxalq konfransına xüsusi dəvət olunaraq bu sahənin ən mötəbər liderlərindən ibarət məruzəçilər siyahısında yer alıb. Dubay şəhərində 17-18 sentyabr tarixində keçirilmiş "Telecoms World Middle East" tədbiri Yaxın Şərqin ən mühüm və aparıcı telekommunikasiya tədbirlərindən biri hesab olunur. Nikolai Beckers və telekommunikasiya sahəsinin digər tanınmış mütəxəssisləri bir araya gələrək əməkdaşlıq, innovasiya və dünyanın telekommunikasiya ekosisteminin ümumi strategiyasını müzakirə ediblər.

Startap, inkubasiya və telekommunikasiya sahəsinin rəqəmsallaşmasına həsr edilmiş paneldə "Turk Telecom" şirkətinin baş direktoru Paul Doany və Nikolai Beckers telekommunikasiya sənayesinin indiki vəziyyəti və bu sahənin gələcək uğurlarının təmin edilməsində rəqəmsallaşmanın və startapların rolu barəsində danışıblar.

**"Rəqəmsallaşmaya hazır olmaq üçün bir sıra tədbirlərin görülməsi zəruridir və sənayenin liderləri əsas və fundamental məsələlərə xüsusi diqqət yetirməlidirlər. İlk növbədə konsolidasiya həyata keçirilməli, biznesin daxili prosesləri və təşkilati strukturu sadələşdirilməlidir. Bildiyiniz kimi, ənənəvi telekommunikasiya operatorları adətən olduqca bürokratik təşkilati struktura malikdir və bu cür strukturda innovasiya və rəqəmsallaşmanın tətbiq edilməsi elə də asan deyil. Bunun həlli yolu isə əsas təşkilatdan kənarında ayrıca bir qurum yaratmaqdır. Bu qurum insanlara öz ideyalarını daha sərbəst şəkildə irəli sürmək imkanı verməli və eksperimentlərə açıq olmaq üçün münbit şərait təmin etməlidir. Bu cür yanaşmanı Bakcell özünün "AppLab" inkubasiya proqramı vasitəsilə nümayiş etdirir",** - deyə Nikolai Beckers bildirib.

Qeyd edək ki, "AppLab" proqramının fəaliyyətə başladığı 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar. "AppLab" layihəsinin iştirakçıları pulsuz İnternet, masa və təlim otaqları ilə yanaşı ideyaları və üzərində işlədikləri proqram təminatı və cihazların inkişaf etdirilməsi üçün tələb olunan ən son avadanlıqlardan yararlanmaq imkanına malikdirlər. "AppLab" Mərkəzinin dəstəyi ilə Azərbaycanın gənc mütəxəssisləri tərəfindən yaradılmış layihələrin bəziləri artıq Android və iOS əməliyyat sistemi ilə işləyən cihazlara yüklənə bilər.

**"İnnovasiyaların tətbiq edilməsi üçün sərbəstlik və məsuliyyət kimi amillər vacibdir. Yalnız bu iki element mövcud olduğu halda rəqəmsallaşma da mümkün olacaq. Klassik telekommunikasiya təşkilatıları nəzarət və əmrlər üzərində qurulub, bu da innovasiyaların inkişafına müəyyən maneçilik törədir. Həmçinin, startaplar vasitəsilə yaradılan yeniliklər əsas təşkilatın strukturuna inteqrasiya olunmalıdır, bu da dünyanın telekom provayderləri tərəfindən nəzərə alınmalı digər vacib bir məsələdir",** - deyə Nikolai Beckers əlavə edib.

Nikolai Beckers Bakcell şirkətinin baş icraçı direktoru vəzifəsinə 2016-cı ildə təyin olunub. Bundan qabaq o, Qərbi və Şərqi Avropa və Cənub Şərqi Asiya ölkələrinin qabaqcıl telekommunikasiya şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışıb. Nikolai Beckersin iş təcrübəsi dünyanın ən rəqabətli telekommunikasiya bazarlarında mühüm biznes uğurlarının qazanılmasında strateji əhəmiyyət kəsb edən fəaliyyətləri və layihələri əhatə edib.

# "Nar" korporativ müştərilərlə növbəti görüş keçirib



Sentyabrın 22-də "Nar" operatoru özünün korporativ müştəriləri ilə növbəti görüş keçirib. 100-ə yaxın şirkətdən 250-yə qədər nümayəndənin dəvət edildiyi görüşün keçirilməsində əsas məqsəd korporativ müştərilərə mobil operatorun yeni imkanları barədə məlumatın verilməsi və əlaqələrin gücləndirilməsidir. Görüşdə "Nar" ilə əməkdaşlıq edən şirkətlər iştirak ediblər. "Cinema Plus" kinoteatrında baş tutan görüşdən sonra qonaqlar "Nar" zalında "Johnny English 3" adlı yeni filmə tamaşa ediblər. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib. Qalib müştərilərə "Nar" tərəfindən xüsusi hədiyyələr verilib.

Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran "Nar" artıq daha sərfəli şərtlərlə əməkdaşlıq təklif edir. Mobil operator biznes üçün nəzərdə tutulmuş tarif planlarının tərkibində olan bonusları da artırıb. Bundan başqa, korporativ tarif planlarına şirkətdaxili limitsiz danışıq dəqiqələri əlavə edilir. Sözügedən tariflər aylıq 8 AZN-dən başlayan abunə haqqı ilə təklif olunur.

Korporativ tarif planlarına qoşulan abunəçilər istər səsli xidmətlər, istərsə də mobil internet üçün sərfəli tariflərdən yararlanmaqla yanaşı, 24/7 rejimində çalışan xüsusi müştəri xidmətlərindən və yüksəkkeyfiyyətli mobil şəbəkədən də istifadə edirlər.

Korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Təkliflərdən yalnız sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və ya fiziki şəxslər yararlana bilərlər.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

# Azercell jurnalistlər üçün seminar təşkil edib

*Rusiyanın məşhur jurnalisti Vitaliy Leybin Azərbaycanın media nümayəndələri ilə sosial şəbəkə texnologiyalarının faydalı istifadəsini araşdırıb*




Bakıda "Azercell Telekom" MMC-nin təşəbbüsü və təşkilatçılığı ilə peşəkar jurnalistlər üçün ixtisaslaşmış seminar keçirilib. "Peşəkar mətbuatda sosial şəbəkə texnologiyaları: formatlar, mövzular, məhdudiyyətlər" mövzusunda seminarın məqsədi media nümayəndələrini bu sahədə baş verən yenilik və trendlərlə tanış etmək, fərqli təcrübələr bölüşmək olub.

Seminara təlimçi qismində tanınmış rus jurnalisti, "Russkiy reportyor" jurnalının baş redaktoru Vitaliy Leybin dəvət edilib. Rusiya və Ukrayna mediasında maraqlı araşdırmaları ilə tanınan Leybin azərbaycanlı həmkarları qarşısında sosial şəbəkələrdən istifadə ilə bağlı maraqlı mühazirələrlə çıxış edib. "Peşəkar jurnalistlər öz sahələrində həvəskar və robotları necə geridə qoya bilər" mövzusunda mühazirədə ənənəvi medianın sosial şəbəkələrlə müqayisəsi, hər bir tərəfin üstün və zəif cəhətləri araşdırılıb. Jurnalistlərə sosial şəbəkələrin verdiyi üstünlüklərdən yararlanmağın, peşəkar məqalələr hazırlamağın alternativ yolları açıqlanıb, bu istiqamətdə məlumatlar, eləcə də istifadəçilərlə iş metodları haqqında əyani məlumat verilib.

Bundan əlavə, Vitaliy Leybin seminar iştirakçılarına self-media, in-media, müəllif jurnalistikası haqqında danışıb. Seminar zamanı maraq doğuran mövzulardan biri də "Bir hekayəni 100 formatda dərc etmək imkanı" ilə bağlı olub ki, burada yazıları auditoriyaya çatdırmağın müxtəlif variantları araşdırılıb. Seminar qrup çalışmaları ilə davam edib. İştirakçılar qısa video modelləri, böyük həcmli məlumat bazaları əsasında materialların yazılması mövzusunda praktiki məşğələ keçiblər. Seminar sual-cavab və müzakirələrlə yekunlaşıb və jurnalistlərə sertifikatlar təqdim edilib.

Qeyd edək ki, "Azercell Telekom" MMC fəaliyyəti boyu daim media nümayəndələri ilə sıx əməkdaşlıq edib. Artıq 10 ildir ki, Azercell-in dəstəyilə onlarla jurnalist üçün ingilis dili kursları keçirilir, beynəlxalq jurnalistika məktəbi ilə tanışlıq və təcrübə mübadiləsi məqsədi ilə Azercell-in xaricdən dəvət etdiyi tanınmış təlimçilər tərəfindən maraqlı mövzularda seminar və təlimlər təşkil olunur.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj: 6074**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
**"AZƏRTAC", "Azadinform", "SİA"**
**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU